# AZƏRBAYCAN VETERANI

**Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı**

10-11 (83-84) 10 iyun 2017-ci il — İctimai-siyasi qəzet


## Prezident İlham Əliyev "Şahdəniz Mərhələ 2" üçün inşa olunan iki platformadan birinin üst tikililərinin dənizə yolasalma mərasimində iştirak edib

"Şahdəniz Mərhələ 2" üçün inşa olunan iki platformadan birinin - yaşayış blokları və texnoloji təchizat platformasının üst tikililərinin iyunun 1-də Bibiheybətdəki Azfen tikinti-quraşdırma sahəsindən Xəzər dənizindəki "Şahdəniz" müqavilə sahəsinə yolasalma mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev və BP-nin Azərbaycan, Gürcüstan, Türkiyə üzrə regional prezidenti Qəri Counz əvvəlcə dövlətimizin başçısına "Şahdəniz Mərhələ 2" və "Cənub Qaz Dəhlizi" layihələri ilə bağlı görülən işlər barədə məlumat verdilər.

"Şahdəniz 2", "Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi", TANAP və TAP layihələrinin daxil olduğu Cənub Qaz Dəhlizi dünyanın ən böyük enerji layihələrindən biridir. Bu dəhliz ilk dəfə olaraq Xəzərdəki ehtiyatları birbaşa Avropanın qaz bazarları ilə bağlayacaq. Layihə çərçivəsində ildə 6 milyard kubmetr qaz Türkiyəyə, 10 milyard kubmetr qaz isə Avropa alıcılarına çatdırılacaq.



"Onu da deyək ki, ilk dəfə olaraq "Şahdəniz 2" platformalarının tikintisi 100 faiz ölkə daxilində həyata keçirilir. Bu tikililərin ümumi çəkisi 29200 ton təşkil edir və onlar 16500 boru qovşağından, 881 kilometr kabel xəttindən ibarətdir. Üst tikililərin quraşdırma işləri üç il ərzində tamamlanıb və son dərəcədə yüksək texniki təhlükəsizlik göstəriciləri ilə həyata keçirilib.

Prezident İlham Əliyevə məlumat verildi ki, dənizə yola salınacaq yaşayış blokları və texnoloji təchizat (YBTT) platformasının üst modullarının tikintisi nəzərdə tutulan qrafikdən tez yekunlaşıb. Üst tikililərin quraşdırılması tamamlandıqdan sonra STB-1 barjına yüklənərək dənizə yola salınmağa hazırlıq məqsədilə bu il mayın 8-də tikinti-quraşdırma sahəsinin yanalma körpüsündəki yükləmə çərçivəsinə qaldırılıb. Üst tikililər artıq öz yerində - suyun 94 metr dərinliyində olan dayaq blokunun üzərinə quraşdırılacaq. Üst tikililərinin çəkisi təxminən 12400 ton təşkil edir. Obyektin uzunluğu 100, eni isə 60 metrdir. Bu konstruksiya 100 nəfərlik yaşayış blokundan, ümumi gücü 60 MVt olan dörd əsas elektrik generatorundan ibarətdir. Platformanın yaşayış blokunda işçilərin istirahəti üçün otaqlar, ofis otaqları, idman zalı yaradılıb. Burada neftçilərin yüksək səviyyədə fəaliyyət göstərmələri üçün hərtərəfli şərait var.



Prezident İlham Əliyev platforma ilə tanış oldu.

Bu gün dünyada bir çox ölkələrdə dərin iqtisadi böhran yaşanır. Ölkələrin gəlirləri azalır, iqtisadi vəziyyətləri çətinləşir. Belə bir vaxtda Azərbaycan qlobal əhəmiyyətli mühüm layihələrə imza atır. Bu, dövlətimizin başçısının rəhbərliyi ilə yürüdülən siyasətin məntiqi nəticəsidir. Azərbaycanın müasir dövrdə belə qlobal və tarixi layihələri icra etməsi ölkəmizin gəlirlərinin artmasına, xalqın sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlib. Bu layihənin həyata keçirilməsi bir daha sübut edir ki, ölkəmizdə neftdən əldə edilən gəlirlərin qeyri-neft sektorunun inkişafına yönəldilməsi, nəticədə iqtisadi potensialımızın daha da gücləndirilməsi, dayanıqlı iqtisadi inkişafın təmin edilməsi, "qara qızıl"dan əldə olunan gəlirlərin insan kapitalına çevrilməsi Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasətin əsasını təşkil edir.

Sonra Prezident İlham Əliyev layihənin işçi heyəti ilə görüşdü. Dövlətimizin başçısı görüşdə çıxış etdi.

Prezident İlham Əliyevin çıxışı

- Bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm. Bu gün tarixdə qalacaq. Çünki biz bu gün "Şahdəniz" platformasının üst hissələrini rəsmi qaydada açıq elan edirik. Bir neçə gündən sonra bu nəhəng qurğular dənizə göndəriləcək və "Şahdəniz" yatağında quraşdırılacaq. Bu, böyük tarixi hadisədir. Çox sevindirici haldır ki, bu nəhəng qurğular yüz faiz Azərbaycanda inşa edilibdir. Bir neçə il bundan əvvəl, xüsusilə "Şahdəniz" yatağı üzrə kontrakt imzalananda bunu təsəvvür etmək belə mümkün deyildi.

Onu da qeyd etmək istəyirəm ki, "Şahdəniz" üzrə kontrakt 21 il bundan əvvəl iyun ayında Xəzər neft və qaz sərgisi zamanı imzalanmışdır. Artıq 21 ildən sonra biz bax, bu tarixi günü qeyd edirik. Bütün bu qurğular Azərbaycanda inşa edilib. Mənə verilən məlumata görə, bu qurğuların inşasında çalışanların əksəriyyəti - 90 faizi Azərbaycan vətəndaşları olub. Yəni, bu illər ərzində gözəl kadr potensialı yetişib və bu, əlbəttə, ölkəmizin enerji potensialını, iqtisadi potensialını gücləndirəcək. Çünki təkcə "Şahdəniz-2" layihəsi çərçivəsində əlavə 16 milyard kubmetr qaz, eyni zamanda, kifayət qədər kondensat hasil ediləcəkdir. Hasil ediləcək bütün bu təbii resurslarla bağlı kontraktlar imzalanıb, onların müştəriləri var və inşa edilən Cənub Qaz Dəhlizi vasitəsilə dünya bazarlarına çıxarılacaq.

İcra olunan layihələrin hər biri ayrılıqda tarixi hadisədir - TANAP, TAP, Cənub Qaz Kəməri, "Şahdəniz-2" layihəsi, bu platformaların tikintisi, bu yaxınlarda Heydər Əliyev adına yarımdalma qazma qurğusunun açılışı. Bir daha qeyd edirəm ki, bunların hər biri ayrılıqda tarixi layihədir. Amma bunlara birlikdə baxanda görürük ki, Azərbaycanda nə qədər böyük potensial yaranıbdır.

Sonra çıxışını ingilis dilində davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev dedi:

-Bu, həqiqətən də tarixi gündür. "Şahdəniz" müqaviləsinin imzalanmasından 21 il sonra indi biz tarixi əhəmiyyət kəsb edən günü qeyd edirik. Bu gün mən ilk növbədə strateji tərəfdaşımız, uzun illərdir Azərbaycanın yaxşı dostu olan BP-yə təşəkkürümü bildirmək istərdim. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması bizim əməkdaşlığımızın başlanğıcı oldu. Həmin vaxtdan bizimlə birgə çalışmış və çalışmaqda davam edən bir çox şirkətlər var. Sizə xatırlatmaq və məlumat vermək üçün demək istərdim ki, həmin vaxt Azərbaycan xarici neft şirkətlərindən ibarət konsorsiumla "Azəri-Çıraq-Günəşli" müqaviləsini imzaladı və BP sadəcə olaraq onlardan biri idi. O, böyük hissəyə malik idi və böyük tərəfdaşlıq var idi ki, bu gün də bu, müəyyən dəyişikliklərlə davam edir.

BP ilə xüsusi münasibətlər o vaxtdan həmin şirkətin Azərbaycanın enerji bazarında, qlobal enerji bazarında fəal oyunçu olması faktına əsaslanır. O vaxtdan indiyədək tərəfdaşlığımızı strateji tərəfdaşlığa çevirən bir çox başqa müqavilələr imzalanıb. Onlardan biri "Şahdəniz"dir. Növbədə "Dayaz sular" və başqaları var. Bu, tərəfdaşlığın yaxşı göstəricisidir. Biz BP-yə etimad göstəririk. Əminəm ki, BP də Azərbaycana etimad göstərir. Əks halda onlar ölkəmizə bu qədər çox vəsait yatırmazdılar. Cənab Counzun dünən və bu gün qeyd etdiyi kimi, BP-nin fəaliyyət sferasında Azərbaycan bir nömrəli investisiya məkanıdır. Bu isə bizim əməkdaşlığımızı daha da gücləndirir. Dünən qeyd etdiyim kimi, hazırda onlar "Azəri-Çıraq-Günəşli" müqaviləsinin genişləndirilməsi üzərində işləyirlər. Ümidvaram ki, bu, tezliklə olacaq. Bundan əlavə, təkcə "Azəri-Çıraq-Günəşli"də bizim tərəfdaşlığımız 2050-ci ilədək davam edəcək. Əminəm ki, "Şahdəniz"dən nəzərdə tutulandan daha çox qaz istehsal ediləcək. Biz "Azəri-Çırağı" "Əsrin müqaviləsi" adlandırmışdıq, indi isə mən əsrlərin müqaviləsindən danışıram.

Mən, həmçinin Azərbaycana yatırılan investisiyalara və uğurlu fəaliyyətə görə bütün tərəfdaşlarımıza, "Şahdəniz" tərəfdaşlarına və bu nadir qurğunu tikən şirkətlərə bir daha təşəkkürümü bildirmək istərdim. Azərbaycanda fəaliyyət göstərən beynəlxalq komanda ölkəmizin inkişafına kömək edir. Düşünürəm ki, ev sahibi olan ölkə yerli şirkət SOCAR ilə əcnəbi investorlar arasında nadir əməkdaşlıq mühiti yaradır. Bir daha sizi təbrik edirəm. Qarşıdakı illərdə sizə uğurlar arzulayıram.

Prezident İlham Əliyev və BP-nin Azərbaycan, Gürcüstan, Türkiyə üzrə regional prezidenti Qəri Counz "Şahdəniz Mərhələ 2" üçün inşa olunan iki platformadan birinin üst tikililərinin dənizə yola salınmasını bildirən düyməni basdılar.

Sonda xatirə şəkli çəkdirildi.

10-11 (83-84) 10 iyun 2017-ci il

AZƏRBAYCAN VETERANI

# Respublika Veteranlar Təşkilatında Azərbaycan Xalq Cümhuriyyətinin 99-cu ildönümü qeyd olunub

Mayın 25-də Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasının 99-cu ildönümünə həsr edilmiş "Azərbaycanın dövlət müstəqilliyi xalqımızın tarixi nailiyyətidir" adlı tədbir keçirilib.

Əvvəlcə Respublika Veteranlar Təşkilatının inzibati binasında yerləşən muzeyin açılış mərasimi olub.

Azərbaycanın dövlət himninin səslənməsi ilə başlayan tədbirdə ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.





Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov çıxış edərək tədbirin Azərbaycanın dövlət müstəqilliyinin elan olunmasının 99-cu ildönümünə həsr edildiyini deyib. Bildirib ki, Prezident İlham Əliyev mayın 16-da Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin dövlət səviyyəsində geniş qeyd olunması haqqında Sərəncam imzalayıb. Bu Sərəncam ölkə rəhbərliyinin Azərbaycanın dövlətçilik ənənələrinə, xüsusilə Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinə yüksək dəyər verməsinin növbəti göstəricisidir. Şərqdə ilk demokratik respublikanın məhz Azərbaycanda yaradılması qürurvericidir. Azərbaycan dövləti Cümhuriyyəti yaradanların xatirəsini hörmətlə anır.

Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin məsul əməkdaşı Rasim Mirzəyev, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tarix kafedrasının müdiri Firdovsiyə Əhmədova, Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun elmi katibi, professor Bədirxan Əhmədov və digərləri çıxış edərək Azərbaycan Xalq Cümhuriyyətinin tarixindən danışıblar. Diqqətə çatdırılıb ki, cəmi 23 ay yaşamasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti sosial, siyasi və iqtisadi sahələrdə mühüm tədbirlər həyata keçirib. XX əsrin əvvəllərindəki çətin ictimai-siyasi şəraitdə xalqımızın ziyalıları Azərbaycan Xalq Cümhuriyyətini quraraq onun müstəqilliyinin dünyada tanınması üçün böyük işlər görüblər. Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ildə süquta uğrasa da, 71 ildən sonra xalqımız yenidən müstəqilliyinə qovuşdu. Hazırda Azərbaycan dövləti bütün sahələrdə sürətlə inkişaf edir. Bu gün bizim əsas məqsədimiz işğal altındakı torpaqlarımızı azad etməkdir.





Tədbirdə İkinci Dünya, Əfqanıstan və Qarabağ müharibələri, Əmək və Silahlı Qüvvələr veteranları, ziyalılar, gənclər təşkilatlarının nümayəndələri iştirak ediblər.

# Nərimanov rayon gəncləri ilə veteranların görüşü

Tədbirdə İkinci Dünya, Qarabağ, Əfqanıstan müharibəsi, əmək və Silahlı Qüvvələr veteranları, Nərimanov Rayon İcra Hakimiyyətinin təmsilçiləri, gənclər, media nümayəndələri iştirak etmişlər.

Tədbir başlanmazdan əvvəl Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Tədbiri RVT-nın sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov acmış gənclərin Azərbaycanın ictimai-siyasi həyatındakı rolundan danışmışdır. C.Xəlilov bildirmişdir ki, gənclərin zəngin həyat təcrübəsinə malik veteranlardan öyrənmək, veteranlarınsa gənc nəslin nümayəndələrinə öz tövsiyələrini vermək baxımından belə görüşlərin əhəmiyyəti böyükdür.

C.Xəlilov hazırda Azərbaycan əhalisinin təqribən üçdə birini gənclərin təşkil etdiyini, onların xalqına, dövlətçiliyinə sədaqətli, vətənpərvər, yüksək mənəvi və əxlaqi keyfiyyətlərə malik insanlar olduqlarını qeyd edib. O, Azərbaycanın ictimai-siyasi həyatında, müxtəlif sahələrdə qazanılan yüksək nəticələrdə gənclərin yaxından iştirakından danışaraq demişdir: “Azərbaycanda müasir gənclər siyasətinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Ulu öndər Heydər Əliyev gənclərin potensialının üzə çıxarılması, onların təhsilli, geniş dünyagörüşünə malik vətənpərvər insanlar kimi yetişməsinə mühüm əhəmiyyət verirdi. Ümummilli lider ölkənin inkişafında gənclərin iştirakını zəruri sayır, onları mühüm vəzifələrə irəli çəkirdi. Bütün bunlar gənclərin təşkilatlanmasına, hərtərəfli formalaşmasına şərait yaradıb. Respublika Veteranlar Təşkilatı gənclərin hərbi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, onların milli-mənəvi dəyərlərimizə sədaqət ruhunda yetişmələri üçün ardıcıl iş aparır. Müntəzəm surətdə gənclərlə müxtəlif yerlərdə görüşlər keçirir, Azərbaycanın şanlı tarixi, döyüş ənənələrinin hərtərəfli təbliğində bilik və təcrübəsini əsirgəmir. Bu tədbirlərin əsas məqsədi gənclərimizi hazırda erməni hərbi birliklərinin işğalı altında olan Vətən torpaqlarını azad etməyə hər an hazır olmağa ruhlandırmaqdır.

Gənclərin ölkənin inkişafının davamlılığında, dövlətimizin qarşısında duran problemlərin həllində üzərinə böyük məsuliyyət düşür. Gənclər ölkənin inkişafı naminə öz potensiallarını səfərbər etməli, siyasi cəhətdən daha da yetkinləşməli, Azərbaycanın etibarlı gələcəyinin qurulmasında yaxından iştirak etməlidirlər. Onlar daxili sabitliyə, xalqın birliyinə qarşı yönəlmiş yad təsirlərdən özlərini qorumağı bacarmalı, belə hallarla inamla mübarizə aparmalıdırlar. Vətəni, müstəqil dövləti qorumaq, daha da inkişaf etdirmək gənclərin ən ümdə borcudur”.

Tədbirdə çıxış edən veteranlar Fatma Səttarova, Adil Haqverdiyev, Cahangir Nəsirov, Nərimanov İcra başçısının müavini İlqar Mirzəyev və başqaları da gənclərə öz dəyərli tövsiyələrini çatdırdılar. Azərbaycan naminə gələcək fəaliyyətlərində onlara uğurlar arzuladılar. Tədbirdə çıxış edən Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov, Nərimanov Rayon Gənclər və İdman İdarəsinin rəisi Nəcəf Novruzov və başqaları gənclərin onlara göstərilən etimadı doğruldulacağına, layiqli vətəndaş olacaqlarına əminliklərini bildirdilər.

Respublika Veternalar Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilov “Gənclərin Dostu” fəxri fərmanı ilə təltif olunub. Daha sonra rayon ərazisində fəaliyyət göstərən 5 ali təhsil müəssisəsinin tələbə-gənclər təşkilatının sədrləri Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı tərəfindən fəxri fərmanları ilə təltif olunublar.

Sonda xatirə şəkili çəkdirildi.












AZƏRBAYCAN VETERANI

# Rus pravoslav kilsəsinin Bakı və Azərbaycan pravoslavlar yeparxiyasının nümayəndələri ilə görüş




19 may 2017-ci il tarixində Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında Rus pravoslav kilsəsinin Bakı və Azərbaycan pravoslavlar yeparxiyasının nümayəndələri ilə görüş keçirilmişdir.

Görüşdə Rus pravoslav kilsəsinin Bakı və Azərbaycan yeparxiyasının başçısı, Arxiyepiskop Aleksandr və yeparxiyanın nümayəndələri iştirak etmişlər.

Qonaqlar RVT-nin inzibati binası və binanın foyesində ulu öndər Heydər Əliyevin Prezident İlham Əliyevin veteranlarla olan görüşlərini əks etdirən fotostendlərə tanış oldular. Yeparxiyanın nümayəndələri veteranalar və Təşkilatın əməkdaşları üçün yaradılmış şəraitdən olduqca məmnun qaldıqlarını bildirdilər. Təşkilatın rəhbərliyi öz növbəsində bu şəraitin Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin qayğısının və diqqətinin təzahürü olduğunu vurğulamış, qonaqlara keçirilən tədbirlər və MDB ölkələrinin veteran təşkilatları ilə yaradılmış əlaqələr barədə danışmışlar.



Görüşdə Rus pravoslav kilsəsinin Bakı və Azərbaycan yeparxiyasının arxiyepiskopu Aleksandr İşein tərəfindən Dadaş Rzayevə 2-ci dərəcəli "Müqəddəs Appostol Varfolomey" medalı, Təşkilatın sədr müavini Cəlil Xəlilova isə 3-ci dərəcəli "Müqəddəs Appostol Varfolomey" medalı təqdim olunmuşdur. RVT-nin Azərbaycanın ictimai-siyasi və mədəni həyatında, gənclərin vətənpərvərlik tərbiyəsində fəal iştirakını yaxından izlədiyini bildirən A.İşein bu medalın D.Rzayevə və C.Xəlilova təşkilatın MDB ölkələrinin, həmçinin Rusiya Federasiyasının veteran təşkilatları ilə əlaqələrinin möhkəmləndirilməsində, o cümlədən Yeparxiya ilə əməkdaşlığın təşkilinə verdikləri töhfəyə görə verildiyini qeyd etmişdir. Görüşün sonunda xatirə şəkli çəkilmişdir.



*Səidə Abdullayeva*

# "Biz Qələbənin varisləriyik"

"Azərbaycan Hava Yolları" QSC-nin Milli Aviasiya Akademiyasının nəzdində fəaliyyət göstərən Azərbaycan Mülki Aviasiya Muzeyi tərəfindən Suraxanı rayonu 232 saylı məktəbdə 1941-45-ci illər Böyük Vətən müharibəsində Qələbənin 72-ci ildönümü münasibətilə "Biz Qələbənin varisləriyik" adlı tədbir təşkil edilib. Tədbirdə məktəbin müəllim və şagirdləri, həmçinin sözün həqiqi mənasında xalqımız üçün Böyük Vətən müharibəsi hesab olunan Qarabağ müharibəsinin veteran təyyarəçiləri Edison Həsənov, Bayram Muxtarov iştirak ediblər. Məktəbin direktoru Məhluqə Əzizova tədbiri açdıqdan sonra muzeyin böyük elmi işçisi Rübabə Əbiyeva "Biz Qələbənin varisləriyik" adlı mühazirə oxuyub. Mühazirədə faşizm üzərində qələbədə xalqımızın misilsiz xidmətləri, rəşadətli döyüş yolu keçmiş cəsur təyyarəçilərimizin qəhrəmanlıqları, bu gün xalqımız üçün əsl Vətən müharibəsi olan Qarabağ müharibəsində iştirak etmiş mülki aviatorlarımızın rəşadətli döyüş yolu, aprel döyüşlərində fədakarlıq və hünər göstərmiş təyyarəçilərimizin qələbə əzmi haqqında ətraflı məlumat verilib. Tədbirdə iştirak edən Qarabağ müharibəsi veteranları təyyarəçilər Edison Həsənov, Bayram Muxtarov öz döyüş xatirələrini şagirdlərlə bölüşərək onlara vətənpərvərlik ruhunda böyüməlırini və vətənlərini sevmələrini tövsiyə ediblər. Sonra məktəbin müəllim və şagirdləri öz ürək sözlərini deyərək qəhrəman təyyarəçilərimizə təşəkkürlərini bildiriblər. Tədbir musiqili kompozisiya ilə davam etdirilib. Tədbirin sonunda muzeyin əməkdaşı Rübabə Əbiyeva görüşün muzey tərəfindən Böyük Vətən müharibəsində qalib gəlmiş babalarımızın qəhrəmanlığından örnək alaraq Qarabağ müharibəsində rəşadətlə vuruşan təyyarəçilərimizin keçdiyi qəhrəmanlıq yolunun bizi qələbəyə aparacağına əminlik hissini aşılamaq, cəsur təyyarəçilərimizin fədakarlıqlarını onlara örnək göstərmək məqsədilə keçirdiyini vurğulayıb və muzeyin hazırladığı "Azərbaycanın təyyarəçiləri Böyük Vətən müharibəsində" adlı kataloqu məktəbin direktoruna təqdim edib. Sonda "Azərbaycanın təyyarəçiləri Böyük Vətən müharibəsində" adlı fotosərgiyə baxış keçirilib.



# Adını Azərbaycanın sərhəd tarixinə yazan insan



İlk görüşümüz dünən olmuş kimi yadımdadır. Azərbaycanın sərhəd mühafizəsi tarixinin dəqiqləşdirilməsi məqsədilə aparılmış tədqiqat işlərinin yekunu barədə Sərhəd Qoşunları komandanına məruzə etməli idim. Gündəlik iş rejiminin son dərəcədə gərgin olmasına baxmayaraq, məni qəbul etdi. Araşdırmanın nəticələri barədəki arayışı diqqətlə nəzərdən keçirdi. Sərhədçilərin peşə bayramı gününün iyun ayının 22-si Azərbaycan Xalq Cümhuriyyəti dövründə ilk sərhəd mühafizə postunun yaranmasından götürülməsi təklifinə çatanda razı olmadığını bildirdi. Həmin günün 18 avqustdan ölkə sərhədlərinin gömrük baxımından mühafizəsi ilə bağlı Qanunun qəbulundan başlanmasının daha doğru olduğunu bir neçə cümlə ilə əsaslandırdı. Sonra da razı olub-olmadığımı soruşdu. Belə məntiqlə razılaşmamaq mümkün deyildi. Sonralar həmin mövzu ilə bağlı kitabın nəşri üçün bir neçə dəfə də Sərhəd Qoşunları komandanı general-mayor Abbasəli Novruzovun qəbulunda oldum. Hər dəfə bu böyük insanın necə sadə, qarşısındakını dinləməyi bacaran, səmimi, obyektiv olmasını gördüm və bundan təsirləndim. İllər sonra da Abbasəli müəllim dəyişmədiyini görəndə ixtiyarsız bu bütövlüyün kökləri haqqında fikirləşirsən. Bu köklər isə dərində olduğu qədər də, onun özü kimi sadə və dəyişməzdir.

İnsanın xarakterinin, müəyyən mənada dünyagörüşünün fomalaşmasında doğulduğu, böyüdüyü mühitin, xüsusilə uşaqlıq və yeniyetməlik illərinin keçdiyi yerin danılmaz təsiri olur. Dağla, aranın fərqi təbiətilə yanaşı, əksər hallarda insanlarının xarakterində də üzə çıxır.

O, gözlərini dünyaya bir yanı dağlara, qayalara söykənən, bir yanı gen dərələrə açılan, qaynar bulaqların çağladığı, Arpaçayın qəmli sularının axdığı torpaqda - Dərələyəz mahalının Zeytə kəndində açmışdı. Ökü dağı, Haça qaya, Xırmanlar, Qurdqulağı dağı ... Neçə-neçə başqa yurd yerlərimiz. Adı çəkiləndə torpaq, yurd, Vətən qədri bilənlərin dodağını neçə yerdən çatladan, doğma ellərimizi yada salan axarlı-baxarlı yaşayış məskənlərimiz. İndi keçmiş sakinlərinin son nəfərinədək dədə-baba ocaqlarından məcburən qovulduğu, qaçqına çevrildiyi yerlər.

Yox, günahkar aşıb-daşan Arpaçayı deyildi. Sel kimi gələn bəlanın adı da, törətdiyi fəsadlar da görünməmiş miqyasda idi. Ermənilərin məlum havadarlarının birbaşa köməyi ilə Azrbaycana qarşı apardıqları iki əsrlik torpaq davasının yekunu olan etnik təmizləmə nəticəsində qədim türk torpaqları - bugünkü Ermənistanda bir nəfər azərbaycanlı da qalmadı.

Abbasəli dünyaya gəldiyi 1937-ci ildə isə bir əsrdən artıq müddətdə qırılmalarına, didərgin salınmalarına baxmayaraq, azərbaycanlılar hələ də Ermənistan əhalisinin əksər hissəsini təşkil edirdilər.

Onların ailəsində 1905-ci ilin erməni-müsəlman davası adlanan, əslində isə ilk genişmiqyaslı türk soyqırımını yaxşı xatırlayırdılar. Ana babası Abbas kişi də bu qanlı hadisələrin qurbanlarından biri olmuşdu. Onun kimi həmin ərazilərdə yüzərlə, minlərlə azərbaycanlı ermənilər tərəfindən öldürülmüş, kəndlər, irili-xırdalı yaşayış məntəqələri dağıdılmış, on minlərlə sakin daimi yaşayış yerini tərk etmək məcburiyyətində qalmışdı. Əsrin əvvəllərində əsasən gəlmə ermənilərdən ibarət olan dəstələr ətraf kəndləri talayıb, yandırdıqdan sonra evsiz-eşiksiz qalan əhalinin əksər hissəsi onların kəndinə yığılıbmış. Səfərlilər, Qurbankəsənlilər, Qarayanlılar, Hüseynlilər, Əlyarlılar. Daha neçə belə ağır tayfaların nümayəndələri imişlər. Azərbaycanlıları əsli-kökü ilə bağlı olduqları torpaqlardan didərgin salanlar sonrakı qanlı hadisələri törətməyə hazırlaşırdılar. 1918-1920-ci ilərdə eyni mərkəzlərdə hazırlanıb, reallaşdırılan bu



faciələrin növbəti dalğası daha genişmiqyaslı olacaq, daha çox türkün məhvi ilə nəticələnəcəkdi. Bu illərdə dağıdılan, talan edilən yaşayış məntəqələrinin sayı da neçə dəfələrlə artacaqdı.

Abbasəlinin doğulduğu, uşaqlıq-yeniyetməlik dövrünü yaşadığı illərdə ölkədə vəziyyət ümumən ağır idi. Bir yandan dolanışıq qayğıları, digər yandan hökumətin apardığı repressiya siyasəti camaatı üzüb əldən salmışdı. Ancaq ailənin yeni üzvü hələ bütün bunlardan xəbərsiz idi. Atası Ramazan kişinin, anası Leyla xanımın onlarla, yüzlərlə yaxınları, soydaşları kimi nələr keçirdiyini, hansı qayğılarla yaşadıqlarını o sonralar biləcək və həmin insanlara acımaqla qalmayacaq, bacardığı qədər kömək etməyə çalışacaqdı. Hələ yaxşı ki, onların ata-babadan qalma dəyirmanları vardı və bu xeyli əllərindən tuturdu.

Sonralar general-mayor Abbasəli Novruzov həmin illəri belə xatırlayacaqdı: "Dörd yaşım olanda kəndin bütün başıpapaqlıları bir gecədə getdilər. Əkinbiçin qocaların, qadınların, bir də biz uşaqların ümidinə qalmışdı. 7-8 yaşım olanda, o qədər vəl minib, kotan sürmüşdüm ki...".

Zəif uşaq olduğu üçün boyunduruqdan tez-tez yıxılırmış. Ancaq inadından dönmür, işdə o birilərindən geri qalmamaq üçün var gücü ilə çalışırmış. Bir də müharibə illərində bu kişilik, mərdlik borcu sayılırmış. O müharibə ki, minlərlə soydaşlarımız kimi onun da neçə doğması gedib və bir daha geri qatıtmayıblar. Dayısı Mütəllim kimi onların əksəriyyətinin də qara kağızları gəlib.

Ancaq öldüsü-qaldısı bilinməyənlərin dərdinin yanında nə qədər ağır olsa da, bu dərdlər yenə çəkiləndir. Nəhayət bütün sovetlər birliyi, eləcə də bəşəriyyət üçün ümumi bəla olan müharibə (İkinci Dünya müharibəsi) sona yetir, sağ qalanlar doğma yurdlarına, ev-eşiklərinə qayıdırlar. Həyat yenidən qaydaya düşməyə başlarkən, növbəti, ancaq bu dəfə yalnız azərbaycanlılara başına gətirilən bir bəla yaşanır. Soydaşlarımız Ermənistan ərazisindən kütləvi surətdə köçürülürlər. 1948-1950-ci illərin, deportasiyası Ermənistan adlanan qədim türk yurdunu ermənilərdən ibarət monoetnik ölkəyə bir addım da yaxınlaşdırır. Sonuncu, 1988-ci il dalğasından öncə başladılmış bu hadisələri A.Novruzov belə xatırlayır:

"1949-cu ildə Zeytə kəndini də köçürdülər. O vaxtlar xüsusilə yaşayış üçün səfalı kəndlərin əhalisini çıxarırdılar. Erməni rəhbərlər yük maşınları göndərmişdilər. Bizi tələsdirirdilər. Sanki qaçhaqaç idi. Təcili çıxmalı, kəndi tərk etməli idik. Əmr belə idi. Artıq-əksik danışmaqmı olardı?.. Ağsaqqallar, ağbirçəklər göz yaşı axıdırdılar. Ayrılmaq istəmirdilər kənd-kəsəklərindən. Dünyanın gedişatından xəbərsiz uşaqlar isə atılıb-düşür, ilk dəfə maşına minəcəklərindən sevinirdilər. Anamı kiritmək olmurdu. Elə hey «Allah baisin evini yıxsın», «Bizi yurdumuzdan didərgin salanın xanımanında bayquş ulasın» - deyə evimizin bir küncünə qısılıb, xısın-xısın ağlayırdı. Bacım Binyazla Gülnaz da səsələrini anamın səsinə qatmışdılar. Köç başlayanda kəndimizin üstünü qara buludlar almışdı".

O qara buludlar qədim oğuz yurdları ermənilər tərəfindən tam viran qoyulmayınca həmin kəndlərin, obaların üstündən əksik olmadı. Sözünün bu yerində saz-söz ustadı, el aşığı Aşıq Cəlildən bir bənd də yadına düşür.

*Aşıq Cəlil düşdü qürbət ellərə,*
*Vətən dedi, Vətən yandım, Vətən oy!..*
*Hər yetəndən yurd yerini soruşdu,*
*Dil-ağzında Vətən sözü bitən, oy!..*

Yeri gəlmişkən deyək ki, Dərələyəz mahalında Aşıq Cəlil, Aşıq Bəhmən kimi neçə el aşıqları olub.

Onların ailəsi və yaxınları digər soydaşlarımızla bərabər yurd-yuvalarından didərgin salınıb. Ömrüboyu dağların sərin, təmiz havasında yaşamış insanları arana - Azərbaycanın Şərur rayonuna gətirib, oradan da vaqonlara yığıb, o vaxtkı Əli-Bayramlı rayonunun Şıx Salahlı kəndinə yola salıblar. Adamların əksəriyyəti köçürüldükləri ərazilərin qora bişirən istisinə dözməyib. Neçələrinin ömürü beləcə yarıda qırılıb. Xalqa qarşı bu amansız terrorun acı nəticələri barədə çox deyilib, çox yazıldığından həmin hadisələrin detallarına varmaq istəmirik. Ancaq bir şeyi qeyd etməmək deyil ki, bu deportasiya Azərbaycan xalqının genefonduna bərpası mümkün olmayan zərbələr vurub. On minlərin ölümünə bais olmaqla, sağ qalan bir neçə nəslin sağlamlığı da əlindən alınıb, illərlə dava-dərmana möhtac qalıblar. Mən bunun 1992-93-cü illərdə Laçından, Zəngilandan, Cəbrayıldan didərgin salınaraq, məcburi köçkünlük taleyi yaşayan dost-tanışlarımın, doğmalarımın şəxsində bir daha şahidi oldum.

Yeni vətəndə onlar üçün ilk yurd yeri Xasay ana adlandırdıqları bir ağbirçəyin evi olub. Xasay ana kasıb komasının qapısını 5 nəfərlik ailənin üzünə məhəbbətlə, səxavətlə açıb. Onları oğullarından ayırmayıb. Əslən Cənubi Azərbaycandan olan bu qadın onlara həyan durmasaymış, ilk vaxtlar vəziyyətləri daha ağır ola bilərmiş. Bu bir yandan təsəlli versə də, digər yandan çəkilməz dərdlər öz işini görür. Deportasiyadan bir il keçməmiş ağır dərdlərə dözməyən anası, onun ardınca özündən 2 yaş böyük bacısı Gülnaz gözlərini həyata yumurlar.

Onlar Qaragünə kəndində məskunlaşmış xalasıgilə köçmək məcburiyyətində qalırlar. Öz vəziyyətləri də yaxşı olmayan xalası doğmalarını himayə edir. Burada kəndin 7 illik məktəbində təhsil alan Abbasəli məktəbi əla qiymətlərlə bitirir. Orta məktəbi isə Əli-Bayramlıdakı Voroşilov adına orta məktəbdə oxuyur. Burada 10 nəfərlik internatda qalmasını, ilk müəllimlərini indi də xatırlayır. Minnətdarlıq hissi ilə yada saldığı həmin müəllimlər onun üçün daim əziz oldblar.

Gənc Abbasəli orta məktəbi bitirib, Neft-Kimya İnstitunun neft texnologiyası fakültəsinə daxil olur. Ancaq tələbə yataqxanasında yalnız yuxarı kurs tələbələrinə yer verildiyindən lazımi maddi dəstəyi olmayan bir gəncin ali təhsil alması çox çətin idi. Birinci kursu birtəhər, yarıac-yarıtox başa vurduqdan sonra, kirayə haqqını ödəyəməyə pulu olmadığından təhsilini davam etdirmir.

1956-cı ildə hərbi xidmətə çağrılan A.Novruzovu tale gələcəyini müəyyən edəcək Sərhəd Qoşunlarına gətirir. Rusiyanın Novorosiyski şəhərində 2 ay layiqincə xidmət edən, bacarıqlı gənci Ukraynanın Lvov şəhərindəki mərəkəzləşdirilmiş kiçik komandirlər məktəbinə göndərirlər. Burada da ilk günlərdən məsuliyyətli, intizamlı davranışı ilə seçilir, komandirlərinin rəğbətini qazanır. Həyatın hər üzünü gördüyü üçün çətinlikdən qorxmayan, yaxşı təhsil alan A.Novruzov bir il sonra dəzgah pulemyotu manqasının komandiri kimi Novorosiyski Sərhəd Qoşunları dairəsinə qayıdır. Onu Soçi yaxınlığındakı Xosta qəsəbəsindəki zastavaya göndərirlər.

Qara dəniz sahilində xidmətini davam etdirən gənc manqa komandirinin zabit olmaq arzusu zastavalarına tez-tez gələn, davranışı və səliqəsi ilə diqqəti cəlb edən Artur Novoselyev adlı gənc leytenanta bəslədiyi rəğbətdən yaranıb. Xidmətinin başa çatması ərəfəsində gələcək Sərhəd Qoşunları komandanı Abbasəli Novruzovu da Moskvaya Sərhəd Qoşunları əməliyyat işləri üzrə məktəbinə göndərirlər.

A.Novruzov həmin hərbi məktəbi uğurla bitirib, Zaqafqaziya Sərhəd Dairəsinin Azərbaycanda yerləşən hərbi hissəsinə təyinat alır. Gənc, savadlı kadr əməliyyat şöbəsinin rəisi polkovnik Musiyenkonun "ağır sahə olan əməliyyat işi sənin üçün çətin olar, yaxşısı budur təcrübə toplamaq üçün hələlik zastavaya göndərək" fikri ilə razılaşmasa da, ixtisası üzrə deyil, Göytəpə Sərhəd Dəstəsinə zastava rəisinin müavini vəzifəsinə təyin edilir. Heç bir çətinlikdən qorxmadığını, əmrə tabe olduğunu, hara göndərilsə, ora da gedəcəyini deməsi də nəticəsiz qalır.

"Zastava Bolqar çayının sahilində yerləşirdi. Xidmət etdiyim bir ay olmazdı sərhəd pozucusu yaxaladım. Buna görə, zabit kimi ilk dəfə sərhədlərin qorunmasında fərqləndiyimə görə təşəkkür aldım", deyə A.Novruzov xatırlayır.

General-mayor Abbasəli Novruzov sonralar müxtəlif sərhəd ərazilərində əməliyyat sahəsində şərəflə, peşəkarlıqla xidmət edir. Vəzifəsi, rütbəsi pillə-pillə artır. Əməliyyat işində qazandığı uğurlara görə, dəfələrlə təltif olunur. Projektor adlı atı ilə Azərbaycanın sərhədlərini addım-addım dolaşdıqca ölkəyə, onun insanlarına daha yaxından bələd olur, özü də tanınır.

Xidməti işlə bağlı yaddaqalan hadisələr də çox olub. Onlardan birini oxucularla bölüşmək arzumuz A.Novruzovu bir zabit, bir



insan kimi daha yaxından tanıtmaqdır. N saylı hərbi hissədə xidmət etdiyi vaxt sərhəd pozulması barədə məlumat alır. Həmin sərhəd pozucuların tutlması üçün təcili tədbirlər görülməli idi. A.Novruzov rayon poçtunun rəisini yanına gəlib xahiş edir ki, yerli radio qovşağı vasitəsi ilə hadisə barədə əhaliyə xəbər versinlər. Diktor bir neçə dəfə sərhədin pozulduğu, rayon ərazisinə casus keçdiyi barədə elanı oxuyur. Həmin ərazidə yerləşən kəndlərdən birinin yaxınlığında sərhəd pozucusu əhalinin köməyi ilə tutulub, müvafiq dövlət orqanına təhvil verilir. Hadisədən bir müddət sonra Sərhəd Dəstəsinin rəisi, polkovnik rütbəli zabit zastavaya gəlir. A.Novruzov meydanda düzülən şəxsi heyət qarşısında medalla təltif olunur. Buna baxmayaraq, polkovnik məxfi məlumatı radio ilə verdiyinə görə onu tənbeh edərək, "uşaq hərəkətlərinə son qoy, əhalini vahiməyə salmaq bizim peşəmizə ziddir", deyir.

A.Novruzov həmin təltifdən sonra sərhədin qorunmasında xidmətlərinə görə "Dövlət sərhəddinin qorunmasında fərqlənməyə görə" medalı ilə təltif olunub.

Onun həyatında çətin dövrlər sonrakı illərdə də az olmayıb. Özü ailə qurmağa hazırlaşanda bacısının həyat yoldaşı rəhmətə gedir. 5 uşaqla tək qalan bacısına kömək göstərmək üçün Sərhəd Dəstəsinin rəisinə xidmətdən azad olunmaq məqsədilə raport yazır. Ancaq təcrübəli komandir polkovnik Nikolay Fyodoroviç Mixaylik ona müdrik məsləhət verir: "ailəyə kömək üçün xidmətdə qalıb işləməyin daha doğru olar" deyir. Onun məsləti, öyüd-nəsihəti indi də A.Novruzovun qulaqlarında səslənir: "Get xidmətinə davam elə, sonra mənə sağ ol deyərsən".

Komandirin bu qərarını o da, həyat yoldaşı Rəisə xanım da minnətdarlıqla yada salırlar. A.Novruzovun dediklrindən: "1984-cü ildə Tbilisidə Zaqafqaziya Sərhəd Dairəsində mənimlə vidalaşma mərasimində Nikolay Fyodoroviç də iştirak edirdi - onda Səfərbərlik şöbəsinin rəisi idi. Hər ikimiz polkovnik rütbəsində idik. Mənim uğurlarıma çox sevinən bu insana dərin minnətdarlığımı bildirdim".

*General-mayor Abbasəli Novruzovun avtobioqrafiyasından digər qeydlər.* 1962-ci ildə Moskvada Ali Hərbi Sərhəd məktəbini, 1966-67-ci illərdə DTK Ali Məktəbində fars dili üzrə kursu bitirib. 1971-ci ilin avqustunda Zaqafqaziya Sərhəd Dairəsinin Kəşfiyyat İdarəsində yeni vəzifəyə təyin edilib. 1974-cü ilin yayında 44-cü Sərhəd Dəstəsi rəisinin (Lənkəran qarnizonu) kəşfiyyat işi üzrə müavini vəzifəsinə göndərilib. Burada xidmət edərkən SSRİ DTK Ali Məktəbini qiyabi yolla hüquqşünas ixtisası üzrə bitirib. 1978-ci ilin 25 mayında Az. SSR Ali Sovetinin Rəyasət Heyətinin fərmanı ilə uzun illər Sərhəd Qoşunlarında xidmətinə və Sərhəd Qoşunlarının 60 illiyi münaibəti ilə «Azərbaycanın Əməkdar Hüquqşünası» fəxri adına laytq görülüb. 1981-ci ildə Zaqafqaziya Sərhəd Dairəsinin Kəşfiyyat İdarəsi rəisinin müavini vəzifəsinə təyin edilib.

Təyinat aldığı vəzifələrin əksəriyyətinə bilik və səriştəsi nzərə alınaraq namizədliyi alternativsiz qəbul edilib. Təsadüfi deyildi ki, SSRİ Sərhəd Qoşunları Baş kəşfiyyat İdarəsinin rəisi general-leytenant Şişlov Tiflisdə polkovnik A.Novruzovla görüşüb, onunla cənub sərhədlərindəki vəziyyət barədə söhbət etdikdən sonra Dairənin bütün kəşfiyyat işləri A.Novruzova həvalə edilmişdi. Rəisi general-mayor F.Subayev ona yalnız əks-kəşfiyyat işləri tapşırılmasından inciyərək hər vasitə ilə A.Novruzovu kənarlaşdırmağa can atır və nəhayət onun Əfqanıstana ezam edilməsinə nail olur. Əfqanıstanın ən qaynar nöqtələrində xidmət edən polkovnik Abbasəli Novruzov tamamilə yeni təcrübə qazanır. Eyni zamanda, müharibəni dinc xalqa gətirdiyi faciələri görür.

A.Novruzov öz işinin peşəkarı olmasını yalnız xidməti vəzifələrin yerinə yetirilməsi ilə deyil, həmçinin çalışdığı sahənin bir sıra nəzəri məsələlərinin yenidən işlənməsi və tamamilə fərqli metodların aşkara çıxarılması ilə də təsdiq edib. Sərhəd Dəstələrində kəşfiyyat işinin təşkilinin yeni forma və metodlarının işlənib hazırlanmasına, təlim-metodiki toplantıların keçirilməsinə gətirdiyi yeniliklər bu gün də uğurla tətbiq olunur. Fars dilini bilməsi, İran tarixinə və mədəniyyətinə bələdliyi sovet dövründə cənub sərhədləri ilə əlaqədar bir çox məsələlərin məhz onunla rzılaşdırılmasını tədəb edirdi. Bu biliklər sonralar İİR-in Sərhəd Komissarı ilə görüşlər zamanı da çox köməyinə çatıb.

A.Novruzov 1984-cü il may ayının 2-də DTK Sərhəd Qoşunlarından ehtiyata buraxılarkən ona təqdim edilən ünvanında deyilirdi: «Hörmətli Abbasəli Ramazanoğlu!

Qüsursuz, uzunmüddətli xidmətiniz ərzində Siz öz güc və enerjinizi əsirgəmədən məsul və şərəfli çekistlik - zabitlik borcunuzu yerinə yetirmisiniz.

Siz Abbasəli Ramazanoğlu, sərhəddə sıravi əsgərdən polkovnik rütbəsinədək çətin bir məktəb keçmiş, Vətənimizin təhlükəsizliyinin təminatı üçün çox şeylər etmisniz.

Sizin gərgin fəaliyyətiniz ən yüksək çekist təltifi olan «Fəxri Dövlət Təhlükəsizliyi Əməkdaşı» nişanı ilə qeyd olunmuşdur».

A.Novruzov ehtiyata buraxıldıqdan sonra 1987-ci ilədək Ədliyyə Nazirliyinin müxtəlif idarərələrində rəis müavini və rəis işləmişdir.

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasından sonra öz bilik və bacarığını ölkə sərhədlərinin qorunmasına sərf etmək arzusunda olan A.Novruzov müstəqil dövlətin Sərhəd Qoşunlarının formalaşmasında məsləhət və tövsiyələri ilə yaxından iştirak edirdi. Peşəkarlığını və idarəetmə təcrübəsi nəzərə alınaraq 8 aprel 1994-cü ildə Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin sərəncamı ilə Azərbaycan Respublikası MTN Sərhəd Qoşunlarının Komandanı vəzifəsinə təyin olunmuşdur. Bu məsul vəzifədə işlədiyi 7 il ərzində general-mayor A.Novruzov ölkənin Sərhəd Qoşunlarının hərtərəfli formalaşması üçün mümkün olan bütün işləri görmüş, sərhədlərin etibarlı mühafizəsinin təşkilinə, peşəkar sərhədçi kadrların yetişməsinə nail olmuşdur. Bu daha geniş mövzunun söhbəti olduğundan Abbasəli müəllimin həmin xidmətləri barədə danışmağı gələcək yazılara saxlayırıq.

Ömrünün ahıl çağını yaşayan, Azərbaycanın sərhəd mühafizəsi tarixinə adını şərəf və peşəkarlıqla əbədi yazmış, yüzlərin, minlərin taleyində xeyirxah əməlləri ilə iz qoymuş general-mayor Abbasəli Novruzovun 80 yaşı tamam olur. Azərbaycan Respublikası Sərhəd Qoşunlarının fəxri veteranına, həqiqi vətənpərvərə və ölkənin layiqli vətəndaşına deyiləsi çox söz, çatdırılası çox arzu var. Bunların arasında ən ümdəsi cansağlığı və fədakar əməyinin bəhrəsini görüb qəlbinin cavan qalmasıdır.

*Lətif Şüküroğlu*

# Ənvər Abramenko: Mən Azərbaycanı sevirəm və bu sevgini övladlarıma ötürmüşəm

Bakını yenidən görmək istərdim. Tarixi vətənim məni özünə çox çəkir, istəyirəm yenidən Bakının havası ilə nəfəs alıb, mənə əziz küçələrdən keçim, Xəzəri görüm.

Bu fikirləri kontr-admiral, Latviya Sualtı Dənizçilər Veteranları Cəmiyyətinin sədri Ənvər Abramenko (Ələkbərov) söyləyib.

Ənvər Aleksandroviç Abramenko 1931-ci ildə Bakıda doğulub. Atası Ələkbər Ələkbərov əslən Naxçıvandandır. Anası Vera Obuxova (qız familiyası) rusdur. Atasının ölümündən sonra Ənvəri atalığı tərbiyə edib, ona öz soyadını verib.

1952-ci ildə Bakı hərbi-dənizçilik hazırlığı məktəbini bitirən E.Abramenko leytenant kimi Polşaya göndərilib. Üç il sonra Liyepayada yerləşən "Alkesandr Petrov" eskadra tralının komandiri təyin edilib. 1970-ci ildə həmvətənimiz Leninqrad (indiki Sankt-Peterburq) Hərbi-Dənizçilik Akademiyasına qəbul edilib. 1975-ci ildə Saki Okean Donanmasının döyüş idarəsi üzrə qərargah rəisinin müavini - donanmanın operativ növbətçisi təyin olunub. 1981-ci ildə isə ona kontr-admiral rütbəsi verilib.

"Mən Azərbaycanda baş verən hadisələri diqqətlə izləyirəm. Azərbaycanın bir çox sahələrdə əldə etdiyi uğurlardan bir bakılı kimi qürur duyuram. Prezident İlham Əliyevin çoxsaylı beynəlxalq məsələlərdə ölçülüb-biçilmiş mövqeyinə böyük hörmət bəsləyirəm. Birmənalı olaraq, ölkəsinin və xalqının mənafeyi və rifahı İlham Əliyev üçün birinci yerdə dayanır".

Ə.Abramenko Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın 2006-cı ildə Riqaya səfərini səmimiyyətlə xatırlayır və təəssüratlarını bölüşür: "Biz arvadım Nadejda Abramenko ilə qəbulda iştirak etdik və bu gözəl cütlüyün səmimiliyini və mehribanlığını şəxsən duyduq".



"Oğlanlarım öz ailələri ilə Kanadada və Peterburqda yaşayırlar. Azərbaycan diasporu onları bayramlarda və xatirə günlərində iştiraka dəvət edir və mən buna çox şadam. Mən Azərbaycanı sevirəm və bu sevgini övladlarıma ötürmüşəm", - deyə Ə.Abramenko fikrini yekunlaşdırır.

Nigar Cəfərli

# Şəki şəhər Veteranlar Təşkilatının fəaliyyəti ürəkaçandır



Şəki şəhər Veteranlar Təşkilatı Ulu öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü və Böyük Vətən Müharibəsində Qələbənin 72-ci ildönümü münasibəti ilə bir sıra görüşlər keçirmişdir.

Belə ki, bu görüşlər Müəllimlər İnstitutunun müəllim və tələbləri ilə Daxili Qoşunların, Sərhəd Qoşunlarının əsgər və zabitlərinin iştirakı ilə baş tutmuşdur. 9 may Faşizm üzərində Qələbənin 72-ci il dönümü münasibəti ilə şəhər İcra Hakimiyyətinin rəhbərliyi və Milli Məclisin deputatı Cavanşir Feyziyev süfrə arxasında veteranların görüşü keçirilmiş və veteranların hər birinə maddi yardım edilmişdir. O cümlədən, Daxili İşlər Şöbəsinin kollektivi ilə birlikdə Böyük Vətən Müharibəsi iştirakçılarının xatirəsinə qoyulmuş Ana Abidəsi anılmış, önünə gül çiçək qoyulmuşdur.

Keçirilmiş tədbirlər KİV-də geniş işıqlandırılmışdır.

Şəki şəhər Veteranlar Təşkilatı veteranların qüvvəsindən istifadə edərək gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması yolunda təbliğat işini uğurla davam etdirir.

M.Əhmədov,
Şəki şəhər Veteranlar Təşkilatının sədri

# Böyük Vətən müharibəsi veteranı: "Ən böyük arzum erməni faşizmi üzərində qələbə qazanmaqdır"

Böyük Vətən müharibəsində 7368 nəfər ağdamlı alman faşizminə qarşı döyüşlərdə iştirak edib, onlardan 3600 nəfərdən çoxu həlak olub. Müxtəlif döyüş cəbhələrində vuruşaraq Vətənimizə sağ-salamat qayıdan veteranlardan biri Ağdam rayonunun Qaradağlı kənd sakini Əsgər Zeynalovdur.



Əsgər Zeynalov Böyük Vətən müharibəsi illərində keçdiyi döyüş yolundan bəhs edərək deyib: "1941-ci ilin oktyabr ayında, 17 yaşımda müharibəyə yollandım. Əvvəlcə bizi Mozdoka apardılar. Orada gedən döyüşlərdə yaralandım. Tbilisidə müalicə olunub yenidən cəbhəyə qayıtdım. Tağım komandiri kimi Kaluqa şəhərindəki döyüşlərdə iştirak etdim. Burada ikinci dəfə yaralandım. Müalicə olunduqdan sonra məni Karpat dağlarına göndərdilər. Döyüşlərdə ağır yaralanaraq Moskvada 4 ay müalicə olundum. 1944-cü ilin sentyabrında tərxis olunub Azərbaycana qayıtdım".

Müharibənin yadigarı kimi bədənində 30-a qədər qəlpə gəzdirən Ə.Zeynalov yaralanması ilə bağlı bir əhvalat da danışdı. "Qolumdan yaralanmışdım. Yaram çox ağır idi. Həkim tibb bacılarına məni əməliyyata hazırlamağı tapşırdı. Tibb bacısı qolumun kəsiləcəyini bildirdi. Çox pis oldum. Həkim gələndə tibb bacısı dedi ki, yaralı musiqiçidir. Qolu kəsilsə tar çala bilməyəcək. Beləliklə də, qolumu kəsmədilər", - deyə o bildirdi.

93 yaşlı Əsgər əminin 6 övladı, 60-dan çox nəvə, nəticə və kötücəsi var. Nəvə-nəticələrinə Böyük Vətən müharibəsi illəri ilə bağlı xatirələrini maraqla danışır.

Müharibə veteranlarına olan dövlət qayğısından razılığını ifadə edən Ə.Zeynalov dedi: "Müalicə olunmaq üçün hər il dövlət tərəfindən sanatoriyaya göndərilirəm. Təqaüd, eyni zamanda, Prezident təqaüdü alıram. Prezident İlham Əliyevlə iki dəfə görüşüm olub. Dövlət tərəfindən mənə minik avtomobili də verilib. Dövlətimizdən, prezidentimizdən çox razıyam".

Ən böyük arzusunun erməni faşizmi üzərində qələbə qazanmaq olduğunu vurğulayan Böyük Vətən müharibəsi veteranı deyib: "Qələbə gününü səbirsizliklə gözləyirəm. Veteran təqaüdümdən qurbanlıq kəsdirib paylayacağam. İnanıram ki, həmin gün tezliklə gələcək".

Tahir Ağaməmmədov

# II Dünya müharibəsində itkin düşən salyanlının cəsədi 73 il sonra tapıldı

Böyük Vətən Müharibəsində itkin düşən salyanlının cəsədi 73 ildən sonra aşkar edilib. Salyan rayonunun Xələc kəndində yaşayan Əliyevlər ailəsi uzun illər müharibədə itkin düşmüş İbrahim Fərzalı oğlu Əliyevin sorağında olub. Bununla bağlı bir çox yerlərə müraciət etsələr də onun sağ və ya ölü olmasından xəbər tuta bilməyiblər. Ailə üzvləri uzun illər onun yolunu gözləyiblər. Bir neçə gün əvvəl Bakı şəhər sakini Qasım Əliyev mətbuatda Böyük Vətən müharibəsində alman faşistləri tərəfindən qətlə yetirilmiş sovet əsgərlərinə məxsus Krımın Armyansk şəhəri ətrafında kütləvi məzarlıq aşkar edildiyini, cəsədlərdən birinin Salyan rayonundan olan və ailəsinin axtarıldığını oxuyub. Məzarlıqda oan 500-dən 1000 nəfərədək insan cəsədindən yalnız 22-nin boynundan asılmış patronun içərisindəki ad və soyadları yazılmış kağızdan tanımaq mümkün olub. Bunlardan 3 nəfəri azərbaycanlı, o cümlədən İbrahim Fərzalı oğlu Əliyevin olduğu məlum olur. O, Əliyevlər ailəsinin məlumatı olsun deyə, bu barədə Şirvan və Salyan Rayon İcra hakimiyyətlərinə rəsmi müraciət edib. Əliyevlər ailəsi məlumatı dəqiqləşdirmək üçün Krımda axtarışa rəhbərlik edən İqor Vladimiroviç Rıjkovla əlaqə saxlayıb və o, bunu təsdiqləyib. Qəhrəmanın nəvəsi Osman Əliyev bildirib ki, 1912-ci ildə Əli Bayramlının Xələc kəndində (1963-cü ilə kimi Xələc kəndi Şiravan şəhərinin tərkibində olub) doğulan babası müharibəyə kimi kolxozda mühasiblıqda çalışıb. 1941-ci ilin iyununda cəbhəyə yola düşüb və 43-cü ilin əvəlində ayağından yaralanıb. Evə buraxılan İbrahim Əliyev bir müddət müalicə alıb sağaldıqdan sonra yenidən cəbhəyə qayıdıb. 1944-cü ilin aprelində isə itkin düşməsi ilə bağlı ailəsinə məlumat verilib. Bu ilin iyununda isə İbrahim Əliyevin nəşi Krımda yeni yaradılacaq qardaşlıq məzarına köçürüləcək. Ailə üzvlərinin də Krıma dəvət olunacağı gözlənilir.

# Azərbaycan İstiqlal Muzeyi

Azərbaycan İstiqlal Muzeyi 1991-ci il yanvarın 9-da yaradılıb və bununla da sənədlərin işlənməsi, arxivlərin öyrənilməsi prosesi başlanılıb. Bu mərhələdə bir çox maraqlı və mühim məqamlar ortaya çıxdı. Belə ki, 1919-cu ilin dekabrın 7-də görkəmli sənətşünas alim Məmməd Ağaoğlunun və Hüseyn bəy Mirzə Camalovun təşəbbüsü ilə Azərbaycan Parlamentinin egidası altında yaradılan İstiqlal Muzeyində heç bir eksponat qalmasa da, 1991-ci ildə təkrarən yaradılan Azərbaycan İstiqlal Muzeyi birinci muzeyin mənəvi varisi oldu. Hal-hazırda muzeyin ekspozisiyasında Azərbaycan xalqının ən qədim zamanlardan bu günə qədər apardığı milli-azadlıq mübarizəsini, bu mübarizədə Vətənimizin müstəqilliyi uğrunda döyüşən xalqımızın oğul və qızları haqqında məlumatlar, müxtəlif tarixi hadisələr əks etdirilir. Muzey işçilərinin səyi nəticəsində 20 mindən çox eksponat toplanmışdır. Muzeyin ekspozisiyasının hər zalı müəyyən tarixi dövrü əhatə edir və 6 zaldan ibarətdir. Muzeyin I zalında Azərbaycan Respublikasının dövlət atributlarını əks etdirən sənədlər, XVIII əsrin ikinci yarısında Azərbaycanın xanlıqlara bölünməsinə, Vətənimizin işğalı uğrunda Rusiya ilə İran arasında gedən müharibələrə, Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinin bağlanmasına dair materiallar da yer alıb. Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində ərazimizin tutulmuş 20%-də yerləşən 22 muzey dağıdılıb, nadir eksponatlar itirilib. Cəbrayıl rayonunun tarix-diyarşünaslıq muzeyinin eksponatları işğal zonasından çıxarıhb və 1993-cü ildən 17000 eksponatı Azərbaycan İstiqlal Muzeyinin fondunda və qismən I zalda nümayiş olunur.

Muzeyin II zalı vaxt baxımından kiçik olsa da, tarixi cəhətdən çox zəngin bir dövr olan XIX əsrin sonu - XX əsrin əvvəlini əhatə edir. Burada mədəniyyət və elm, eyni zamanda, neft sənayesinin inkişafı, H.Z.Tağıyev, M.Nağıyev, M.Muxtarov kimi neft milyonçuları tərəfindən tikilən yeni binalar ilə bağlı xeyli savda materiallar yer alıb. Abbasqulu ağa Bakıxanovun, Mirzə Cəfər Topçubaşovun, Mirzə Kazım bəyin, Mirzə Fətəli Axundovun, milli mətbuatımızın əsasını qoyan Həsən bəy Zərdabinin, Cəlil Məmmədquluzadənin və başqa klassik şair və yazıçıların fəaliyyətini əks etdirən materiallar da bu qəbildən olan materiallar sırasındadır. 1918-ci il 31 mart soyqırımına həsr olunmuş fotofaktlar, arxiv materialları, sənədlər də bu ekspozisiya zalında nümayiş etdirilir.

1918-ci il may ayının 28-də müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Demokratik Respublika yaradıldı. Bu Respublika türk və islam dünyasında ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcılarından olan M.Ə.Rəsulzadə, F.X.Xoyski, Ə.B.Topçubaşov və digər görkəmli şəxsiyyətlərin tarixi anlarını əks etdirən fotolar, o zamanın pul vahidləri, poçt markaları, dövlət rəmzləri həmin dövrün müxtəlif hadisələrini əks etdirən materiallar bu zalda yer alıb.



Muzeyimizin III zalı Cənubi Azərbaycanda baş vermiş milli-azadlıq hərəkatlarından - 1905-1911-ci illər Məşrutə hərəkatı, 1917-1920-ci illər Şeyx Məhəmməd Xiyabani hərəkatı,1941 -1945-ci illərdəki "21 Azər" hərəkatından (Seyid Cəfər Pişəvərinin başçılığı ilə) danışılır, o dövrün pul vahidləri, orden və medalları, görkəmli şəxsiyyətlərin, şair və yazıçıların, elm xadimlərinin portretləri nümayiş etdirilir.

Muzeyimizin IV zalı iki hissədən ibarətdir. Birinci hissəsi 1930-1950-ci illəri əhatə edir. Bu dövrdə Azərbaycamn səadəti uğrunda çalışan elm adamları, söz sahibi olan şair və yazıçılar, partiya və dövlət xadimləri - H.Cavid, M.Müşfiq, Ə.Nəzmi, Ə.Cavad, S.Mümtaz, B.Talıblı və başqaları, irticaya məruz qalaraq, ya güllələndilər, ya da Sibirə sürgün olundular. Respublikada siyasi və ictimai fəallığı ilə fərqlənən Azərbaycan qadınları da repressiya qurbanlarına çevrildilər.

Muzeyimizin V zalı Qarabağ hadisələrinə həsr olunub. 80-ci illərin sonunda Azərbaycan Ermənistan tərəfindən irticaya məruz qaldı. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ müharibəsi nəticəsində 20% torpağımız Ermənistan Respublikası tərəfindən işğal olundu, 1 milyondan çox vətəndaşımız qaçqın düşdü. Bu zalda 20 Yanvar faciəsini, Xocalı soyqırımını, Qarabağ müharibəsini əks etdirən fotoşəkillər nümayiş olunur, 211 nəfər Milli Qəhrəmanların siyahısı, onların bəziləri haqqında məlumat verilir. Bu zalın eksponatlarının arasında 1989-cu ildə Qız Qalası üzərinə qaldırılmış sadə azərbaycanlı qadın tərəfindən tikilmiş ADR-in üçrəngli bayrağı, Qarabağ müharibəsi veteranı Seyidağa Mövsümlüyə aid 20 yanvar faciəsi və Xocalı soyqırımını lentə almış videokamera. Milli Qəhrəmanların ailə üzvləri tərəfindən muzeyə hədiyyə edilmiş onların şəxsi əşyaları da var.

Ekspozisiyada Xalq rəssamları Altay Hacıyevin "Cavad xan", Böyükağa Mirzəzadənin "Köhnə neft mədənlərində", rəssam-heykəltəraş Sabir Çopurovun neftdən istifadə edərək əl ilə çəkdiyi "Qarabağ" şəkli və Babək barelvefı, Azərbaycan Xalq rəssamı Əzim Əzimzadənin II Dünya müharibəsinə həsr olunmuş rəsm əsərləri, keramist-rəssam Məzahir Əfşarın "Dədə Qorqud" maketi, ARDNŞ tərəfindən muzeyə hədiyyə edilmiş Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin maketi və digər eksponatlar da nümayiş olunur. Azərbaycan İstiqlal Muzeyinin fondu daim yeni eksponatlarla zənginləşir. Bunların arasında Azərbaycan Respublikası Milli Qəhrəmanlarının, 20 Yanvar şəhidlərinin, Xocalı faciəsinin şahidlərinin, Qarabağ müharibəsinin iştirakçılarına aid sənədlər, fotoşəkillər, kitablar və s. var.

Məmməd Mirzəliyev

# Baba, sən Heydər Əliyevi görmüsən?

*(Xatirə)*

Balaca Fidanın məktəbdən gələn kimi bu müraciəti və mənim cavabıma məsumcasına heyrətlənməsi yadıma Ulu Öndərin yaxın əməkdaşlarından birinin "Gələcək nəsillər bizim Heydər Əliyevlə bir dövrdə yaşamağımıza həsəd aparacaqlar"- sözlərini saldı.

Heydər Əliyev şəxsiyyətinin, Heydər Əliyev fenomeninin əsl qiymətini zaman, tarix verəcək. Uca dağların əzəməti uzaqdan daha aydın görünür. Biz - Heydər Əliyevin müasirləri, onu həmişə əsl vətəndaş, dahi şəxsiyyət və qüdrətli lider kimi xatırlayacayıq. Onunla çiyin-çiyinə çalışmış insanlar, onun xalqımız üçün, Azərbaycanımız üçün etdiklərini daha yaxşı bilənlər Heydər Əliyevi Azərbaycanın milli sərvəti, onun bəxtinə düşmüş Tanrı payı kimi qiymətləndirirlər. Bu gün biz Müstəqil Azərbaycan dedikdə H. Əliyevi, H.Əliyev dedikdə Azərbaycanı düşünürük. Öz xalqı, milləti, dövləti ilə bu cür vəhdət hər sərkərdəyə, hər dövlət xadiminə, hər qəhrəmana nəsib olmur!

Heydər Əliyev Azərbaycanı canı qədər sevirdi, azərbaycanlı olmağı ilə fəxr edirdi. Bu dahi insanın şəxsiyyəti, onun azərbaycançılıq, türkçülük, müasirlik fəlsəfəsi bizim üçün həmişə örnək olub və olacaqdır.

Hər dəfə düşünəndə ki, bu əfsanəvi insanla bir dövrdə yaşamışam, hətta iki dəfə onu yaxından görübdinləmək mənə qismət olmuşdur, özümü xoşbəxtlərin xoşbəxti sanıram.

Bir hadisə yaddaşımda ən parlaq xatirələrdən biri kimi qalıb. Tiflis şəhərində Qafqaz Hərbi Dairəsinin yübileyində Yerli hərbi idarəetmə kurslarının dinləyicisi kimi mən də iştirak edirdim. Rəyasət heyyətini keçmiş SSRİ-nin nüfuzlu partiyadövlət və hərbi xadimləri təşkil edirdi. Yubileyi ev sahibi kimi Eduard Şeverdnadze xarakterik gürcü ləhçəsi ilə açıq elan etdi. Karen Dəmirçiyan yazılı çıxışını hiss ediləcək dərəcədə zorla başa vurdu. Heydər Əliyev tribunaya qalxanda və çıxışa başlayanda zalı gurultulu alqışlar, ovasiyalar bürüdü. Buna səbəb natiqin, həmişə olduğu kimi, səlist danışığı, dəmir məntiqi idi. Ən maraqlısı isə tədbirdən qayıtdıqda rus zabitlərindən birinin mənə dedikləri idi: "Расулов, ваш Гейдар Алиевич любого из руководства за пояс заткнет!.." Azərbaycanlı olduğum üçün, onun millətinə mənsub olduğum üçün böyük fəxarət hissi keçirdim.

Daha bir xatirə Ulu öndərin ikinci dəfə hakimiyyətə qayıdışı zamanına, Qarabağ müharibəsinin ən kəskin dövrünə təsadüf edir. Cəbhədə yaranmış gərgin vəziyyətlə əlaqədar Agacəbədi şəhərində bütün rayon rəhbərlərinin hərbçilərlə birgə müşavirəsi çağırılmışdı. Baş Komandan bilavasitə səngərlərdə olduqdan sonra saat 13-dən 21-ə kimi mövcud vəziyyəti toplantı iştirakçıları ilə təhlil və müzakirə etdi. Müşavirənin axırına 2-3 saat qalmış mülki şəxslər toplantıdan buraxıldılar. Tədbir yalnız hərbçilərin iştirakı ilə davam edirdi. Oturdugum yerdən səhnə arxasından gələn dəhlizin açıq qapısından Prezidenti müşayiət edən gənc, pəhləvan cüssəli generalın açıqaşkar hiss olunan yorğunluqdan özünə yer tapa bilməməsi nəzərimi cəlb etdi. Baş Komandan isə müşavirəni necə başlamışdısa, öz şux görkəmini, gümrahlığını qibtə ediləcək dərəcədə saxlamışdı. Ulu öndər qüdrətli zəkanın və fiziki qüvvənin təcəssümü idi.Ulu öndərin xalqımıza ən böyük yadigarı onun ideyaları, Heydər Əliyev siyasəti və bu siyasətin ən layiqli və etibarlı davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevdir. Onun "mən bütün azərbaycanlıların Prezidentiyəm" sözləri əsl azərbaycanlını təsirləndirməyə bilməz. Atalar demişkən: "Ot kökü üstə bitər!" Bizim hər birimiz bir vətəndaş kimi taleyin bizə bəxş etdiyi bu nadir imkandan Azərbaycanımızın tərəqqisi naminə dəyərincə istifadə etməliyik.



*Əlibala Rəsulov,*
*e.o polkovnik-leytenant,*
*Hacıqabul rayon Veteranlar Təşkilatının sədri*

# Onun döyüş yolu Tuladan başlayıb Berlində başa çatıb



Böyük Vətən müharibəsi veteranı Cəbrayıl Babayev 1922-ci ildə gözəl təbiətə malik Lerik rayonunun Daster kəndində anadan olmuşdur.

Ömrünün 95 - ci ilini yaşayan Cəbrayıl müəllim qəlbi işıqla və xeyirxah əməllərlə dolu müdrik bir şəxsiyyətdir. Onun keçib gəldiyi yol vətəninə, xalqına faydalı olduğuna görə şərəfli olduqca yaddaqalandır.

1941-ci ildə Böyük Vətən müharibəsi-faşistlərlə ölüm-dirim mübarizəsi başlanır, Vətənin ağır keçən bu günlərdə milyonlardan biri kimi Cəbrayılda ərizə verib könülü surətdə ordu sıralarına yola düşür. O, bir ay hərbi hissələrin birində döyüş hazırlığı təlimləri keçir. Onun üçün isə əsl sınaq isə Tuladan başlanır. Burada faşistlərlə mübarizə aparır. Belorusiya cəbhəsində döyüşlərdə, Varşavanın azad olmasında, Berlinin alınmasında qəhrəmanlıq göstərir. Dəfələrlə düşmənlə üz-üzə gələrək onları məhv edən müəllim göstərdiyi hünərə görə orden və medallara layiq görülür. Bir neçə dəfə yaralanmasına baxmayaraq hospitalda müalicə olunub döyüşlərə qatılır. Müharibədən sonra doğma Daster kəndinə qayıdır.

Cəbrayıl Babayev müharibədən sonra kəndin bütün işlərində fəallıq göstərir, ürəyi həmişə cəmiyyət yenilik gətirmək həvəsi ilə vurur. Həyat, gün-güzəran yaxşılaşanda o bir-birindən işıqlı, gözəl arzulara can atır. Camaat bacarığını, işgüzarlığını, mehribanlığını nəzərə alıb onu kənddə briqadir seçirlər. Əməyi el-obaya yalnız sevinc, fərəh, firavanlıq gətirir. Hər kəsi onu əməyinə, əməlinə görə tanıyır. Bu halallığı, birliyi duyan torpaq da dasterlilər sinəsini səxavətlə açır, bol məhsul yetişdirir. Kənd inkişaf edir, burada xəstəxana, məktəb, mədəniyyət evi, dəyirman tikilir. Torpaq Cəbrayıl kimi insanların hesabına dasterlilərin həyatında iqtisadi, mənəvi anaya çevrilir.

C. Babayev mühasiblik məktəbini bitirir. Bir müddət Daster kənd sovetinin katibi işləyir. Adamların qayğısı ilə yaşayır. Güzəran yaxşılığa doğru dəyişdikcə həyatın gözəlliyinə, ömrün şirinliyin təkrar-təkrar vurulur. Doğma yurduna həmişə fayda vermək istəyi bir anda olsun onu tərk etmir. Sənədlərini Bakı şəhər 1 saylı Tibb Texnikumuna verir. 1968-ci ildə məktəbi bitirib, Daster kənd xəstəxanasında insanların sağlamlığı keşiyində durur. Sənətini ürəkdən sevir, bundan sonra taleyini ona bağlamağa qərar verir. Hər an insanlara lazım olur, hər şeydə onlara kömək, dayaq olur. Rahatlığı da, şan-şöhrəti də insanların sağlam həyatında görür. 1994-cü ildə xəstəxanadan pensiyaya çıxır.

Cəbrayıl müəllim gözəl ağsaqqaldır. Mərhəmətlidir, xeyirxahlıqdan doymur. Kənd camaatı bu dəyərli ağsaqqalın hörmətini həmişə, hər yerdə üstün saxlayır, onun faydalı məsləhətlərdən dahimi bəhrələnir. İnsanların sevinci-fərəhi onu qəlbən pərvazlandırır, ömrünün üstünə yeni illər gətirir.

Onun övladları da həyatda öz yerlərini yaxşı tapıblar. Doğma vətənə əsl məhəbbətlə bağlanıb, hər işdə atalarının başını ucaldıblar.

Cəbrayıl kişi bu yaşda da gününün əsas hissəsini əməklə bağlayır. Deyir ki, adamı həyata, insanlara sevdirən birinci şərt halal əməkdir. O, xalqına bağlı olduğu qədər, dövlətə, onun başçısına sadiq bir vətəndaşdır, Həmişə söhbətlərini yer üzərində əmin-amanlıq diləyi, Qarabağın tezliklə azad olunması ilə bitirir. İnsanları nikbinliyə, həyatı, öz dövlətini, onun başçısını, vətənini, xalqını sevməyə səsləyir.

*Zəfər ORUCOĞLU,*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

# AĞSAQQAL



Əliheydər Xeyriş oğlu Əsədov 1937-ci ilin iyun ayında Cəlilabad rayonunun Dələli kəndində anadan olmuşdur. Qarakazımlı kənd orta məktəbində 8-ci sinfi bitirdikdən sonra 1954-cü ildə Salyan Kənd Təsərrüfatı Texnikumunun aqronomluq fakültəsinə qəbul olub. 1958-ci ildə texnikumu fərqlənmə diplomu ilə bitirib, doğma kəndlərinə qayıdaraq əmək fəaliyyətinə sovxozda fəhlə kimi başlayıb. Həmin sovxozda fəhlə, briqadir, kiçik aqronom, baş aqronom işləyib. Sovxozda işləyə-işləyə təhsilini artırmaq üçün 1959-cu ildə Gəncə Kənd Təsərrüfatı İnstitutunun aqronomluq fakültəsinə qiyabi daxil olub. O, həmin institutu 1966-cı ildə aqronom ixtisası ilə bitirib. 1967-ci ildə isə işlədiyi sovxoza direktor təyin edilib.



Ə.Əsədov 1972-ci ildə rayon partiya komitəsinin qərarı ilə Göytəpə peşə liseyinə müəllim göndərilib. Bir müddət pedaqoji fəaliyyət göstərəndən sonra “Bakı fəhləsi” və Kuybişev adına üzümçülük sovxozlarında baş aqronom işləyib. 1980-cı ildən isə Cəlilabad rayonu Meşə Təsərrüfatına direktor təyin edilib. 0,1986-cı ildən rayon Kimyəvi Məhsullar Təchizatı bazasının direktoru, sonra rayon Tingçilik sovxozunun direktoru, 1988-ci ildən rayon Kənd Kimya Birliyinin sədri, 1992-ci ildən Dələli kolxozunun sədri, 1995-ci ildən rayon Kənd Kimya Birliyinə yenidən sədr vəzifələrində fəaliyyət göstərib. Uzun müddət təsərrüfat sahəsində çalışan Ə.Əsədov 1999-cu və 2005- ci illərdəki bələdiyyə seçkilərində rayon bələdiyyəsinə şura üzvü seçilərək Cəlilabad bələdiyyəsində ümumi şöbənin müdiri işləyib.

Ailəlidir, 2 oğlu, 1 qızı, 6 nəvəsi var.

Keşməkeşli, çətin, lakin şərəfli və mənalı ömür yolu keçmiş, bu gün gənclərimizə örnək olacaq şanlı bir həyat yaşamış Əliheydər Əsədov 2001-ci ildən rayon Veteranlar Təşkilatının, 2012-ci ildən isə rayon Ağsaqqallar Şurasının sədridir.

2013-cü ildə Cəlilabad rayon icra hakimiyyəti rəhbərliyinin təşəbbüsü ilə mənalı həyat yolu keçmiş Əliheydər Əsədov haqqında “El ağsaqqalı” və “Şərəfli ömür yolu” kitabları nəfis şəkildə hazırlanıb çap olunmuşdur. Gənclərimizin vətənpərvər və milli ruhda, mənəvi cəhətdən sağlam böyüməsində, adət- ənənələrimizin qorunub saxlanılmasında böyük əhəmiyyəti olan bu kitabların rayon ictimaiyyətinə təqdimatı keçirilmişdir.

Ə.Əsədov 2015-ci ildə səmərəli fəaliyyətinə görə Respublika Veteranlar Təşkilatı tərəfindən “Veteran həmrəyliyi” medalına layiq görülmüşdür.

*AĞSAQQAL*

Ağsaqqal! Dərk etməz bu adı naşı,
Çətin ki, bu sözdə böyüklük görə.
Yaşla ölçülməyib ağsaqqal yaşı,
Ağsaqqal deyilib ağlına görə.

Ağsaqqalsız elin, başsız olanın,
Halalı, haramı heç vaxt bilinməz.
Elin ünvanına gələn bəlanın,
Ev-ev, ünvan-ünvan dərdi bölünməz.

Harda qarşılasa ağsaqqal səni,
Orda düzlük olar, bərəkət olar.
...Hər elin, obanm yol gösrətəni,
Nə yaxşı böyüklük eyləyəni var!

*Ədalət Salman,*
*Azərbaycan Yazıçılar Birliyinin üzvü*

# İtaliyanın fəxri vətəndaşı



*Elyazov Məşi Həmid oğlu 1923-cü il Zəngəzur mahalının Comərdli kəndində anadan olmuşdur. Orta təhsilini bitirdikdən sonra texniki peşə məktəbinin mexanizator ixtisasına yiyələnmişdir.*

1942-ci ilin fevral ayının 24-də müharibəyə yola düşmüş, yaşadığı rayondan Naxçıvana, oradan Tbilisiyə, daha sonra Kutaisi şəhərinə yollanmışdır. 3 ay hərbi təlim keçdikdən sonra Ukrayna uğrunda gedən ağır döyüşlərdə Məşi Elyazov ilk vaxtlardan komendantlığın diqqətini cəlb etmişdir. Kursk vilayətinin Starıy Oskol şəhərində gedən döyüşlərdə döyüş əməliyyatlarında rəşadət və hünər göstərmişdir. Çox ağır döyüşlərdə on mindən çox sovet döyüşçüsü faşistlərə əsir düşdü. Onların arasında Məşi Elyazov da var idi. Məşi Elyazov əsirlərlə birlikdə Ukraynanın Krım şəhərindən Rumıniyanın Konstantinopol şəhərinə və sonra Buxarestə aparıldı. Buxarestdən əsirlər piyada Macarıstanın paytaxtı Budapeştə yola düşdülər. Budapeştə Məşi Elyazovla birgə digər əsirləri vaqonlara doldurulub, Polşa, Avstriya və Çexoslovakiyadan keçərək Fransaya aparıldı. Daha sonra isə 1943-cü ilin yay aymda əsirlər eşalonlarla İtaliyanın Pioçensa şəhərinə göndərildi. Əsirlər Pioçensanın Saiso Maçero qəsəbəsində saxlanılırdı. O öyrənmişdi ki, şəhər ətrafındakı meşə və dağlıq ərazidə partizanlar cəmləşib. Qaranlıq bir gecədə Məşi və azərbaycanlı əsirlərin bir neçəsi gözətçilərin gözündən yayınaraq qaçmağa imkan tapdılar. İtaliyanın Pioçensa şəhəri Saiso Maçero qəsəbəsində saxlanılan yüzlərlə əsirin azad olunması üçün əməliyyat hazırlandı. Həmin əməliyyatın həyata keçirilməsində ön sıralarda duranlardan biri də Məşi Elyazov idi. Bu əməliyyatda Məşi Elyazov qəflətən rastlaşdığı bir alman zabitini tərk silah edərək, onu içərisində məxfi sənədlər olan çantası ilə birlikdə komandanlığa təhvil verdi. Həmin sənədlərdə çox mühüm məlumatlar olduğuna görə komandanlıq tərəfindən təşəkkür aldı. Bundan başqa Reccio, Modena və digər şəhərlərin azad olunmasında çox böyük qəhrəmanlıqlar göstərdi.

Partizanların komandiri Cüzeppe ilə döyüş əməliyyatlarının hazırlanmasında, Mehdi Hüseynzadənin döyüş əməliyyatlarınının bir neçəsində iştirak etmişdir. Məşi Elyazov hücum əməliyyatları keçirilməsində cəsurluq göstərməsinə, hərbi məlumatlar əldə edilməsində göstərdiyi xidmətlərinə görə Mərkəzi Azadlıq Hövzəsi Güc Birliyi və Müttəfiq Qüvvələrin baş komandanı Marşal N. R. Aleksandr tərəfindən imzalanmış 12.37.81 saylı vətənpərvərlik diplomu ilə təltif edilmişdir.

1945-ci il 9 may Almaniya üzərində tarixi qələbədən sonra doğma kəndinə qayıtmış, kolxozda çalışmışdır.

Məşi Elyazov İtaliyanın fəxri vətəndaşı olmaqla yanaşı İtaliya Veteranlar Şurasının üzvü, həmçinin I qrup Böyük Vətən müharibəsi əlilidir. O, bir neçə dəfə cənab Prezident İlham Əliyevlə görüşmüş, Belarus və Rusiya səfirlikləri tərəfindən təltifnamə və qiymətli hədiyyələrə layiq görülmüş, döyüş yolu haqqında film çəkilmişdir. Müharibədə qazandığı orden və medalların siyahısına əmək fəaliyyətindəki orden və medallar da əlavə olunmuş, kənd sovetinin deputatı seçilmiş, xalq elçisi kimi şərəfli ad daşıyıb.

Dövlətimiz tərəfindən göstərdiyi xidmətlərə görə pulsuz avtomobil və cənab prezident İlham Əliyev tərəfindən 2016-cı il 9 may tarixində mənzillə təmin edilmişdir.

Məşi Elyazov torpaqlarımızın tezliklə erməni işğalçılarından azad olunacağına və Azərbaycan Ordusunun qələbəsinə inanır.

*Əfruz Elyazova*

# Respublika Veteranlar Təşkilatının əməkdaşları Tərtər rayonunda

Respublika Veteranlar Təşkilatının Gənclərin hərbi vətənpərvərlik şöbəsinin müdiri eo polkovnik Adil Haqverdiyev və baş mütəxəssis Adil Babaşov Tərtər - Goranboy rayonları ərazisində yerlşən N saylı hərbi hissələrdə zabit, gizir, çavuş və əsgərlərlə müasir döyüş bacarıqlarının yüksəldilməsi, nizam-intizamın möhkəmləndirilməsi, hərbi vətənpərvərlik hissinin artırılması, eləcə də mənfur erməni qəsbkarlarına qarşı layiqli döyüş əməliyyatlarının aparılması məqsədi ilə ezamiyyətdə oldular.

Təşkilatın əməkdaşlarını Tərtər rayon hərbi prokuroru, ədliyyə polkovnik-leytenantı Fuad Məmmədov qarşıladı, müavini ədliyyə polkovnik-leytenatı Emil Xankişiyev göstəriş verdi ki, onları Tərtər rayonunda yerləşən N saylı hərbi hissələrlə tanış etsin.

E.Xankişiyev bizi N saylı hərbi hissənin komandiri polkovnik Vüsal Ələsgərov, hərbi hissə komandirinin tərbiyəvi işlər üzrə müavini polkovnik-leytenant Babəklə Səmədli tanış etdikdən sonra hərbi hissənin heyəti ilə görüş keçirildi və çıxışlar oldu. Tədbirdə Azərbaycan Ordusu Qələbə əzmindədir və aprel döyüşləri əsasında mövzuda aparılmışdır. Keçirilən görüşdə məlum oldu ki, hərbi hissənin şəxsi heyyəti öz vəzifə borclarını yüksək səviyyədə ayıqsayıq xidməti vəzifələrini yerinə yetirirlər. Belə ki, erməni qəsbkarlarının təxribatçılarının qarşısının alınmasında əsgər Orxan Xeyriyev Azər oğlu 2 dəfə fərqlənmişdir. Tədbir zamanı N saylı hərbi hissənin komandiri polkovnik Vüsal Ələsgərov C.Naxçıvanski adına medalla, N saylı hərbi hissənin şəxsi heyyət üzrə müavini Babək Səmədli RVT-nin Fəxri Fərmanı ilə təltif olundular.

Növbəti gün isə digər N saylı hərbi hissənin komandiri polkovnik-leytenant Əflatun Nuruyev və onun müavini polkovnik-leytenant Elmir Həsənov ilə görüşüb hərbçilərin qarşısında polkovnik Adil Haqverdiyev və polkovnik-leytenant Adil Babaşov çıxış etdilər. Qeyd olunan hərbi hissənin əsgəri İbrahimov Abbas Mehman oğlu və leytenant Novruzov Novruz Vaqif oğlu nümunəvi xidmətlərinə görə Təşkilatın Fəxri Fərmanları ilə təltif olundular.

Keçirilən tədbirin sonunda hərbi hissələrin rəhbərliyi, eləcə də Tərtər rayon hərbi prokurorluğunun rəhbərliyi RVT-nin rəhbərliyinə yüksək səviyyədə keçirilən tədbirə görə öz təşəkkür və minnətdarlığını bildirdilər. Sonda xatirə şəkli çəkildi.

# 70 yaşın ucalığı



Daxili Qoşunların Veteranlar Şurası sədrinin müavini, ehtiyatda olan polkovnik-leytenant Telman Aslanovun 70 illik yubileyi münasibətilə tədbir keçirilmişdir. Tədbirdə Daxili Qoşunların Baş İdarəsinin və hərbi hissələrinin zabit və gizirləri, veteranlar, hərbi xidmətə yeni qəbul olunan əsgərlər iştirak etdilər.

Tədbiri giriş sözü ilə açan Sabunçu Rayon Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, Daxili Qoşunların Veteranlar Şurasının üzvü, ehtiyatda olan mayor, şair Elxan Xəzər Telman Aslanovun 30 ildən artıq hərbi xidməti dövründə böyük nüfuz qazandığını, bu gün veteranlar arasında bir ağsaqqal kimi dərin hörmətə malik olduğunu vurğuladı.

T.Aslanovun həyat və fəaliyyət mövzusunda məruzə ilə Daxili Qoşunların Veteranlar Şurasının katibi, hərbi jurnalist Yalçın Abbasov çıxış etdi. Məruzəçi yubilyarın bu günədək zəngin və maraqlı ömür yolu keçdiyini, Daxili Qoşunların sıralarında fədakarcasına xidmət etdiyini bildirdi.

Məruzəçi T.Aslanovun övladlarının da hərbçilər olduğunu nəzərə çatdıraraq, bu faktı cəmiyyətimiz üçün bir örnək adlandırdı. O,veteranın yubileyinin yüksək səviyyədə keçirilməsinin Daxili Qoşunların komandanlığının veteranlara diqqət və qayğısının təzahürü olduğunu bildirdi.

Daxili Qoşunların Baş İdarəsində Mənəvi-psixoloji hazırlıq şöbəsinin rəisi polkovnik Mətləb Qənbərov Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun yubilyara təbrik məktubunu oxudu.

Daxili Qoşunların Veteranlar Şurasının sədri, ehtiyatda olan polkovnik-leytenant Murad Mürsəlov öz çıxışında T.Aslanovu veteranlar adından təbrik etdi.

T.Aslanov Respublika Veteranlar Təşkilatının "Veteran həmrəyliyi" medalı ilə təltif olundu. Təşkilat adından medalı veterana təqdim edən Camal Qəhrəmanov ona ictimai fəaliyyətində uğurlar arzuladı.

Sabunçu Rayon Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının təbrik məktubunu oxuyan E.Xəzər T.Aslanov barədə fikirlərini də tədbir iştirakçıları ilə bölüşdü.



Sonda T.Aslanov çıxış edərək ona göstərilən diqqət və qayğıya, 70 illik yubiley tədbirinin təşkilinə görə Daxili Qoşunların komandanlığına və şəxsi heyətinə, veteranlara dərin minnətdarlığını bildirdi. O, Daxili Qoşunların veteranı olaraq üzərinə düşən ictimai vəzifələri bundan sonra da əzmlə yerinə yetirəcəyini vurğuladı.

Tədbirin sonunda xatirə şəkli çəkdirildi.

*Xədicə Hacızadə*

AZƏRBAYCAN VETERANI

# Hüquqi məsləhətlər

*Respublika Veteranlar Təşkilatına daxil olunmuş suallara cavab veririk:*
*Sual: Ünvanlı sosial yardım kimlərə verilir və onu necə almaq olar?*

Aztəminatlı ailələrin ünvanlı dövlət sosial yardımı ilə təmin olunması 2006-cı il yanvarın 1-dən qüvvəyə minmiş və iyulun 1-dən fəaliyyətə başlamış "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikası Qanununa əsasən həyata keçirilir.

Həmçinin sistemin tam fəaliyyətini təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 2 fevral tarixli, 32 nömrəli Qərarı ilə "Sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları" və "Ailənin orta aylıq gəlirinin hesablanması Qaydası" təsdiq edilib.

Bu qanuna əsasən, sosial yardım hüququna orta aylıq gəliri (müraciətdən əvvəlki son 1 il ərzində) onlardan asılı olmayan səbəblərdən hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olan aztəminatlı ailələr malikdirlər. Sosial yardım aztəminatlı ailələrə yaşayış yeri üzrə rayon (şəhər) Əhalinin sosial müdafiəsi mərkəzlərində fəaliyyət göstərən "Ünvanlı sosial yardım təyin edən komissiya"lar tərəfindən təyin olunur.

Ailənin orta aylıq gəliri hesablanan zaman rəsmi və qeyri-rəsmi mənbələrdən ailəyə daxil olan pul və natura formasında bütün gəlirlər nəzərə alınır. 2012-ci il üçün ehtiyac meyarının həddi 84 manat məbləğində müəyyən edilmişdi. Sosial yardımın məbləği ailənin orta aylıq gəliri ilə hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusu arasında yaranan fərq məbləğində hesablanır. 2016-cı ildə ehtiyac meyarının həcmi 105 manat idi. 2017-ci ilə isə 116 manat planlaşdırılıb.

Sosial yardım onu almaq üçün müraciət edilən ayın 1-dən etibarən 1 il müddətinə təyin olunur. Təyinat müddəti bitdikdən sonra aztəminatlı ailə sosial yardım almaq üçün təkrar müraciət etmək hüququna malikdir.

Sosial yardımın 3 əsas prinsipindən biri bərabərlik prinsipidir. Başqa sözlə, sosial yardım bütün aztəminatlı ailələrə təyin edilir. Sosial yardımın təyin olunması zamanı ailə tərkibində heç bir milli və etnik mənsubiyyətindən, irqindən, dərisinin rəngindən, dini etiqadından, qaçqın və ya məcburi köçkün olmasından asılı olmayaraq Azərbaycan Respublikasının vətəndaşları, Azərbaycan Respublikasında daimi yaşayan əcnəbi və vətəndaşlığı olmayan bütün şəxslər nəzərə alınır.

Ailənin istifadəsində nəqliyyat vasitəsi olduqda, yaxud ailənin orta aylıq gəlirinin 50 faizindən çox məbləğdə aylıq kredit öhdəçiliyi olduqda, yaxud yardım üçün müraciətdən 1 il əvvəl ailə respublika üzrə təsdiq edilmiş yaşayış minimumunun (cari il üçün bu göstərici 108 manatdır) 10 mislindən çox məbləğdə təhsil haqqı ödədikdə və ya alqı-satqı etdikdə, həmçinin ailənin əmək qabiliyyətli, işləməyən üzvü Məşğulluq Xidmətinin yerli orqanı tərəfindən təklif olunmuş 2 münasib işdən imtina etdikdə həmin ailəyə sosial yardımın təyin olunmasından imtina edilir.

Sosial yardımın verilməsinə təsir edəcək hallar barədə zəruri məlumatlar verilmədikdə, yaxud ailə tərkibi və ailə üzvlərinin gəlirləri barədə düzgün və ya tam olmayan məlumatlar və sənədlər verildikdə "Ünvanlı dövlət sosial yardımı haqqında" Qanunun 10.2-ci maddəsinə əsasən, həmin ailə 1 il müddətinə sosial yardım almaq hüququnu itirir.

Sosial yardımın alınması üçün ailəni təmsil edən şəxs yaşayış yeri üzrə rayon (şəhər) Əhalinin sosial müdafiəsi mərkəzinə xüsusi ərizə forması (1 nömrəli əlavə), "Ailənin gəlir və əmlakı haqqında bəyannamə" (2 nömrəli əlavə) və aztəminatlı ailələrin yoxsulluq vəziyyətindən çıxarılması məqsədi ilə uyğun vasitələrin müəyyən edilməsi üçün sorğu anketi, və digər zəruru sənədlərlə müraciət edir.

Qeyd edək ki, vətəndaşlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəsmi internet saytında (www.mlspp.gov.az) istifadəyə verilən elektron xidmətlər vasitəsi ilə də sənədlərini göndərə bilərlər.

Eyni zamanda bizdə olan məlumata görə 2017-ci ildə Azərbaycanda yaşayış minumumu 155 manat həcmində proqnozlaşdırılıb ki, bu da ötən ilki göstəricidən 13,97 fazi çoxdur.

Əhalinin sosial-demoqrafik qrupları üzrə yaşayış minimumu isə əmək qabiliyyətli əhali üçün - 164,5 manat, təqaüdçülər üçün - 130,2 manat, uşaqlar üçün - 136,6 manat təşkil edəcək.

Qeyd edək ki, cari ildə yaşayış minimumu 136 manat təşkil edib ki, o cümlədən əmək qabiliyyətli əhali üçün - 145 manat, təqaüdçülər üçün - 115 manat, uşaqlar üçün - 118 manat təşkil edib.

Büdcə zərfində 2017-ci il və növbəti 3 il üçün yaşayış minimumunun artırılması nəzərdə tutulur. Belə ki, 2018-ci ildə 162,6 manata, 2019-cu ildə 169 manata, 2020-ci ildə isə 174,9 manata çatdırılması proqnozlaşdırılır.

Gələn il Azərbaycanda ehtiyac meyarı 116 manat təşkil edəcək.

Qeyd edək ki, 2016-cı ildə ehtiyac meyarının həcmi 105 manat səviyyəsində təsdiq edilmişdi.

Veteranlara ünvanlı sosial yardımın verilməsi Respublika Veteranlar Təşkilatının səlahiyyəti xaricindədir.

Ə.M.Əliyev,
Veteranların Sosial Müdafiəsi şöbəsinin baş mütəxəssisi, hüquqşünas

# 104 yaşlı veteran



1941-1945-ci illər Böyük Vətən müharibəsində alman faşizmi üzərində qələbədən 72 il ötür. Bu böyük qələbədə Azərbaycan xalqının ön və arxa cəbhələrdə göstərdikləri qəhrəmanlıq və fədəkarlığın misilsiz rolu olmuşdur. Bu qanlı müharibədə çoxlu qurbanlar verilsə də, təsəlli və fəxr doğuran hal odur ki, bəşəriyyət faşizm taunundan xilas edilmişdir. Böyük Vətən müharibəsi dövründə astaralılar da alman faşistlərinə qarşı qəhrəmanlıqla döyüşmüşlər. Onlardan biri də Seyfullayev Mircahangir Şahbaz oğludur. O, 1913-cü ildə füsünkar təbiətə malik Astara rayonun Toradi kəndində anadan olmuşdur. Bu kənd Sovet İttifaqı Qəhramanı Mirzə Cəbiyevin boya-başa çatdığı kənddir. O, 1942-ci ilin yanvar aymda müharibəyə getmiş, Ukrayna, Finlandiya, Polşa, Almaniyada faşist işğalçılarına qarşı döyüşlərdə iştirak etmişdir. 1942-ci ildə Don çayı sahilində gedən döyüşdə ayağından ağır yaralanaraq, bir müddət hospitalda müalicə olunduqdan sonra, Ukraynada 416-cı Taqanroq diviziyasının tərkibində döyüşlərdə iştirak etmişdir.

1943-cü ilin aprel ayında Ukrayna cəbhəsində göstərdiyi igidliyə görə «Qırmızı Bayraq Ordeni» ilə təltif olunmuşdur. 1944-1945-ci illərdə döyüşən ordunun tərkibində Berlinin azad olunmasında iştirak etmiş, müharibədə igidlik göstərdiyinə görə dəfələrlə orden və medallara layiq görülmüşdür. O cümlədən, Ali Baş Komandan tərəfindən təşəkkür məktubu alıb. 1945-ci ildə ordudan tərxis olunaraq yaşadığı kəndə gəlmişdir. I-ci qrup müharibə əlilidir. Uzun müddət yaşadığı kənddə kolxozda və meşə təsərrüfatında da işləmişdir. Əmək veteranıdır. Hal-hazırda Seyfullayev Mircahangirin 6 uşağı, 40 nəvəsi, 71 nəticəsi və 5 kötükcəsi vardır. Nəvələrinin 31-i həqiqi hərbi xidmətə gedib vətən qarşısında öz borclarım verərək sağsalamat evlərinə qayıtmışlar.

Mircahangir Seyfullayevin 104 yaşı və 9 may Qələb günü münasibəti ilə ona rayon İcra Hakimiyyəti başçısının təbrik məktubu və hədiyyə təqdim edilmişdir. Onu təbrik edib cansağlığı arzulayırıq.

Rafiq Əliyev,
Astara Rayon Veteranlar Təşkilatının sədri

AZƏRBAYCAN VETERANI

## Ветеран ВОВ из Азербайджана рассказал, как их обстреляли над Варшавой

В преддверии 71-й годовщины со Дня Победы в Великой Отечественной войне Sputnik Азербайджан представляет читателям цикл воспоминаний "спустя годы" участников ВОВ. Одним из ветеранов, которого навестила редакция, стал Дамет Меджид оглу Набиев, служивший в экипаже самолета-бомбардировщика.

Дамет Набиев родился в 1925 году в селе Варвара Евлахского района. В феврале 1943 года Набиев отправился на войну — ему было 17 лет. Два солдата из Азербайджана были отобраны для прохождения курсов летчиков-бомбардировщиков, в том числе и наш герой. "15 февраля 1943 года я записался в ряды армии. Страна была под угрозой захвата, каждый из нас должен был встать на защиту своей родины. Нас привезли в запасной полк города Сумгайыт. Не прошло и месяца, как прибыли два офицера и отобрали двух солдат в Военную Авиационную школу Грузии, среди которых был и я", — вспоминает ветеран. Дамет Набиев принимал участие в боях под Украиной, Польшей и дошел



вплоть до Берлина. "Как сегодня помню седьмой полет над Варшавой — мой друг был ранен, а экипаж постоянно обстреливали, в итоге мы вынуждено приземлились в городе Висла, когда уже был поврежден один мотор самолета. Благо, деревня осталась в сохранности, и нам удалось спастись", — рассказывает ветеран. Экипаж Набиева участвовал в военных действиях по освобождению Варшавы. Последний боевой полет был проведен 2 мая 1945 года, при бомбардировке самого Берлина. "Сражался я в рядах армии вплоть до Дня Победы. Многие из моих друзей погибли, многие были ранены. А я сам получил ранения в грудь и голову во время полетов с парашюта — и чудом остался в живых. Мы всегда знали и верили, что победа будет за нами", — заключил ветеран ВОВ. Дамет Набиев также три года служил в Агдаме, а до 1973 года — в Гяндже. Многие годы он посвятил воспитанию подрастающего поколения, готовил бойцов к армии и читал лекции по поднятию боевого духа. И по сей день ветеран гордится тем, что родился и живет на азербайджанской земле.

## Мамед Ахмедов прошел боевой путь до Берлина, вернулся домой с победой, но на родной земле ему пришлось пережить еще одну трагедию...

Житель деревни Сохбетли Шабранского района, ветеран и инвалид I группы Великой отечественной войны Ахмедов Мамед Сейфат оглу, несмотря на свои сто лет, все еще не теряет бодрости тела и силы духа. Он родился 11 января 1917 года в Грузии, в Ахалцихе, по национальности — турок-месхетинец. Мамед учился в сельской школе на хорошие оценки. Но школа была семилетняя, и в старших классах детей направляли в городскую школу. "Из-за того, что мой отец был богатым, меня не захотели брать в городскую школу. Я целыми днями плакал, ничего не ел, очень хотел учиться. Но потом появился лозунг Сталина, что отец не отвечает



за сына, а сын – за отца. После этого меня взяли в школу", — рассказывает Ахмедов. Не смотря на то что, деду Мамеду 100 лет он с удовольствием занимаются физическим трудом Вспоминая свой жизненный путь, Ахмедов и гордится прожитыми годами, и грустит. Ему довелось пройти через все ужасы войны, но это было еще не все. "В 1940 году нас отправили воевать в Финляндию. Мы захватили территорию, за которую сражались, 18 марта и на какое-то время бои прекратились", — продолжает ветеран. В годы Великой Отечественной войны он своими боевыми товарищами дошел боями до Молдовы. Это было голодное время, пайки выдавались, можно сказать, граммами. От голода многие солдаты ели стебли кукурузы: "Я говорил им, что не надо есть, можете умереть, но они не послушали меня и многие из них умерли. Смерть преследовала нас повсюду каждый день и каждый час". После Молдовы солдатам дали двухмесячный отдых, продолжает свой рассказ старый ветеран. "Нам принесли много еды. Но мой желудок от голода настолько сузился, что я боялся много есть и заболеть", – говорит он. Выживший среди мертвых Ахмедов был танкистом. По его словам, советские танки уступали немецким: "Их танки пуля не могла пробить. Вообще их техника намного превосходила нашу." В боях за Сталинград он получил тяжелое осколочное ранение – это произошло 4 января 1943 года. Убирая мертвые тела с поля боя, сперва решили, что он умер и оставили среди трупов: "Спустя несколько часов солдаты начали собирать тела, и тогда одна украинская медсестра услышала хрипы. Она увидела, что я дышу, и сразу же попросила отвезти меня в госпиталь. Вылечившись, я вновь вернулся на фронт". Ахмедов был танкистом и по его словам, советские танки уступали немецким Ахмедов таким образом прошел боевой путь до самого Берлина. "Мы освободили Берлин, и я очень горжусь этим", — говорит старый ветеран. По его словам, самый тяжелые сражения происходили в Германии. Советские войска, как и противник, несли большие потери, но солдаты верили в победу. "Передать словами, что мы чувствовали там, очень сложно. Река Рейн в Германии была красной от крови. Несколько часов подряд текла красная кровь", — вспоминает Ахмедов. Депортация Отпраздновав победу, Ахмедов вернулся домой — в Грузию, но здесь ему довелось пережить еще одну трагедию. Никого из своих родственников он на родине не нашел — их всех депортировали в Узбекистан. И он отправился туда, чтобы найти и воссоединиться со своей семьей. Там же он встретился со своей любимой. Еще до войны Мамед обручился с девушкой. Она прождала его семь лет, и они наконец смогли пожениться. "Она была мне не просто женой, а надежным другом. В прошлом году мы



отметили 70-летие нашей свадьбы. К сожалению, в апреле она скончалась", — рассказывает Ахмедов. У деда Мамеда пятеро детей – один сын и четверо дочерей У деда Мамеда пятеро детей – один сын и четверо дочерей. Несмотря на свои годы, он продолжает работать в своем саду. Помимо своего родного языка, он умеет говорить и писать на русском, английском, немецком, азербайджанском, узбекском. А его любимое занятие – это чтение газет. Он очень благодарен азербайджанскому народу за теплое отношение. После ссылки в Узбекистан он в 1992 году переехал с семьей в Азербайджан. "Эта земля стала для нас родной, и мои внуки и правнуки готовы пролить за нее последнюю каплю крови", — говорит ветеран. Он прошел через все тяготы жизни – расставание с родной землей, ужасы войны, но все это не смогли сломить его любовь к жизни. И даже в свои сто лет в его глазах попрежнему горит страсть к жизни.

Лейла Абдуллаева

# 95-летний ветеран Александр Гритченко: «Нигде с такой заботой не относятся к ветеранам ВОВ, как в Азербайджане»

Мы встретились с одним из самых удивительных людей нашей страны – Александром Гритченко. Познакомил нас с этим человеком заслуженный журналист Азербайджана Зейтулла Джаббаров.

Александру Гритченко - 95 лет (!), и он поражает энергичностью и ясностью ума с первых минут знакомства. Сан Саныч (а называют его именно так, и нас он попросил обращаться к нему таким образом) ежедневно преодолевает четыре этажа знаменитого «Адмиралтейского дома» на Баилово, подняться по лестничным пролетам на которые не так просто даже молодым. Но наш собеседник ежедневно ходит на работу. «Я не могу сидеть без дела. Я люблю вкалывать, без выходных», - признается он.

Но мы не сказали главного: Александр Гритченко – капитан 1 ранга в отставке, военный журналист, сотрудник Организации ветеранов войны-однополчан Азербайджана. Но и это не все – А.Гритченко - автор более 50 книг, брошюр, сотен очерков и статей о военном патриотизме. Его книги «Азербайджан — фронту», «Полководцы, военачальники Великой Победы», «Герои Азербайджана», «Адмиралы Каспия» получили широкое признание читателей. Александр Гритченко много путешествовал, общаясь с другими ветеранами и собирая уникальные истории. Его перу принадлежат книги «Азербайджан – фронту», «Полководцы, военачальники Великой Победы», «Герои Азербайджана», «Помнить фронтовиков», «Победа в сердце каждого», «Победа и память», «Дружба народов и победа», биографии адмирала Д.Джавадова, героев Советского Союза Гафура Мамедова, Зии Буниятова и многих других.

Можно сказать, что Сан Саныч наделен некоей Миссией: рассказывать своим современникам (и оставить все эти рассказы потомкам) о героях Азербайджана.

Орденов, медалей и наград у Сан Саныча – десятки, и он гордо демонстрирует два военных кителя, увешанных ими. «Один я даже не могу надеть, слишком тяжелый», - смущенно говорит он, и добавляет: «А вот эти медали на кители уже не поместились, поэтому я храню их отдельно, на столе», - и бережно демонстрирует нам остальные заслуженные награды. Помимо военных наград (среди которых ордена Красного Знамени, Красной Звезды, Отечественной войны, медаль «За боевые заслуги») награжден орденом «Шохрат».

- Я не могу рассказывать о себе, мне это кажется неправильным, ведь я воевал как все. Да, я прошел от и до одну из самых страшных войн – Великую Отечественную – и, поверьте, порой было очень трудно, больно и очень страшно. Не верьте тем, кто будет рассказывать вам о том, что они ничего не боялись, это неправда. Но смелость и состоит в том, чтобы забыть о своем страхе тогда, когда этого требует твоя совесть, любовь к Родине, честь. Я не могу выпячивать свои заслуги. Мне кажется, я должен рассказать обо всех героях этой войны, и поэтому я стараюсь сделать все, что в моих силах, пока я живу. Я ищу, собираю порой по крохам информацию, часами сижу в архивах, чтобы воздать должное истинным героям. Часто именно мои журналистские и писательские расследования становились причиной того, что многим погибшим на этой войне давали звание Героя посмертно, - признается он.

Сан Саныч рассказывает нам о подвигах своих однополчан, гордо поправляя военную форму, которую неизменно продолжает носить.

- Вы знаете, многие, возможно, не понимают, почему я всегда в военном кителе. Но это меня дисциплинирует, помогает взбодриться, помогает чувствовать себя энергичным. Когда я надеваю китель, я как будто сбрасываю груз прожитых лет, я подтягиваюсь, - улыбаясь, говорит он.

Сан Саныч с супругой Розой ханум живут достаточно скромно: квартира аккуратная, светлая, но без излишеств.

- Вот видите телевизор, - показывает он на «плазму», - это мне подарил глава Исполнительной власти. Я люблю иногда посмотреть телевизор, уважаю музыку. Правда, современную большей частью не понимаю, - признается он, - в наше время ведь все было иначе. Певцы и певицы действительно пели, да и вели себя скромнее и очень достойно.

- Я готовился к встрече с вами, прочел присланные вопросы. Хочу показать вам мои грамоты, их у меня около 300. Чтобы вы могли убедиться лично, что я ничего не выдумываю и не присваиваю себе чужих заслуг. Я горжусь каждой наградой, каждой грамотой, каждой присланной мне телеграммой. Ой, вы знаете, - вдруг широко улыбается Сан Саныч, - у меня ведь даже есть медаль от Бога! Сейчас покажу, - и протягивает нам серебряную медаль «Святого апостола Варфоломея». - Я раньше не верил в Бога, но в последнее время все больше убеждаюсь, что Он все же есть. А медалью и грамотой меня за мои лекции наградили, - говорит он. - Я же еще и лекции читаю. Причем, четко знаю, для какой аудитории, сколько времени потратить на выступление. Но заканчиваю всегда стихами.

И Сан Саныч наизусть декламирует нам целые четверостишия сразу трех поэтов. Поразительно!

- Вы тоже удивлены моей памятью? – спрашивает он. - Когда мне вручали Почетный диплом Президента Азербайджанской Республики, Али Гасанов тоже был удивлен. И назвал меня аксакалом. Это приятно. Али Гасанов также вручал мне орден «Шохрат». (Распоряжением Президента Азербайджана от 30 января 2017 года члены Организации ветеранов войны, труда и Вооруженных сил Азербайджанской Республики были награждены почетными дипломами Президента за плодотворную деятельность в общественной жизни и заслуги в патриотическом воспитании молодежи - прим. ред.)



Мы просим Сан Саныча рассказать о себе, хотя бы кратко. Потому что ну очень нам интересно, как он попал в Азербайджан и почему решил остаться здесь жить.

- Я действительно очень люблю Азербайджан, здесь я чувствую себя своим, я чувствую себя дома. Жаль, что в мое время не было необходимости в азербайджанском языке, сейчас мне очень обидно, что я его не знаю. Но к нам в любом случае относятся с большим теплом. А уж ветеранов здесь очень уважают. Мне есть, с чем сравнивать, я выезжал в Москву, и когда рассказывал тамошним ветеранам о том, что делает для нас Президент Ильхам Алиев, многие даже сетовали: «Эх! Нам бы такого президента!»к - рассказывает он и добавляет:

- Но, чтобы дойти до момента, когда я приехал в Азербайджан, я должен начать свой рассказ с периода моей жизни задолго до этого.

Александра Гритченко призвали в армию сразу после окончания школы в Днепропетровске. Совсем еще мальчишкой он попал на войну с первого дня ее начала и прошел до самого конца.

- По окончанию школы меня призвали в армию, это было в октябре 1940 года. Я попал в Севастополь, а через полгода началась война. В первый же день я понял, что это такое. Было очень страшно. Знаете, я не люблю говорить лишнего о себе. Я могу приукрасить художественное произведение, которое пишу, но это, скорее, необходимость. В главном – в фактах – я никогда не лгу.

Затем была Азовская флотилия, дошли мы до Днестровского лимана, а потом я попал в Дунайскую флотилию. На войне я был связистом, служил в морской пехоте. Участвовал в составе Черноморского флота, а завершающий период войны, начиная с августа 1944 года, участвовал в освобождении от фашизма Румынии, Болгарии, Югославии, Венгрии, Чехословакии и Австрии, - рассказывает он.

По словам Сан Саныча, писать заметки в газеты он стал еще в школьном возрасте, когда учился в 8 классе, участвовал во многих конкурсах в родном Днепропетровске, а на войне лишь продолжил то, к чему лежала душа.

- В ноябре 1945 года меня взяли в ежедневную газету Дунайской флотилии «Дунаец», где после войны был недокомплект. После окончания войны я поступил на Высшие военно-политические курсы в Москве, где изучал журналистку, а затем меня послали работать на Камчатку, Чукотку и Курильские острова. Вообще-то я должен был там проработать только три года, нок никто не хотел ехать на замену. Поэтому я задержался в тех суровых краях на пять лет. Но оставаться там я не хотел: слишком холодный край. Хотя там было интересно, даже могу рассказать две хохмовые истории, - улыбаясь, говорит Сан Саныч.

Однажды надо было писать о морской пехоте и поехать на отдаленную береговую батарею. Дали нам три лошади: для меня, для моего попутчика и для солдата, который потом этих лошадей должен был привести обратно. А я ни разу до этого в седле не сидел! Да еще попалась мне лошадь комбата – с норовом, которая всячески противилась моему желанию поехать на ней верхом. В общем, сжалились надо мной, дали другую лошадь. А еще нас почему-то отказался везти «Петропавловский трамвай» - так называют собачьи упряжки. Мучились мы, с санок падали и, в конце концов, 20 километров бежали за собаками, - смеется Сан Саныч.

Во Владивостоке вышла моя первая книга «Путь к подвигу» о краснофлотце Петре Ильичеве. О его подвиге почти никто не знал, а мне это казалось несправедливым. Ведь он участвовал в милитаристской войне с Японией, и в одном из боев, чтоб спасти своих товарищей, закрыл телом амбразуру вражеского пулемета. Десять лет я боролся за то, чтобы ему присвоили звание Героя Советского Союза посмертно. И получилось: матери построили дом, назначили пенсию, поселок назвали его именем, - рассказывает Сан Саныч.

Продолжение в следующем номере...

# Şeydayev Fərhad - 70

Şeydayev Fərhad Rüstəm oğlu 1947-ci ilin iyun ayının 1-də Xaçmaz rayonunun Şərifoba kəndində kolxozçu ailəsində anadan olmuşdur.

O, 1966 -cı ildə Dadaş Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Xalq Təsərrüfatının İqtisadiyyatı və Planlaşdırılması fakultəsinə qəbul olmuş və 1970-ci ildə həmin institutun tam kursunu bitirərək iqtisadçı ixtisasına yiyələnmişdir.

1970-1971 ci illərdə təyinatla Ümumittifaq bölgüsinə əsasən Özbəkistan SSR-də, 1972-1975 -ci illərdə Azərbaycan SSR Kənd Tikintisi Nazirliyinin 1 nömrəli trestində böyük iqtisadçı, 1975-1987 illərdə Xaçmaz rayon Aqrar Sənaye birliyində, Aqrokombinatda bir sıra məsul vəzifələrdə işləmişdir. Bu müddətdə Dövlət onun əməyini yüksək qiymətləndirərək "Sosializm yarışının qalibi" döş nişanı və 1981 -ci ildə "Rəşadətli Əməyə görə" medalı ilə təltif olunmuşdur.

Daha sonra 1987-1989 cu illərdə "Rayonlararası Nomativ-Tədqiqat" stansiyasının müdiri, 1993-1997 ci illərdə Xaçmaz Çörək Kombinatında Baş iqtisadçı, 1997-2002 ci illərdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Əlilləri Sosial Müdafiə Fondunun Xaçmaz rayon şöbəsinin müdiri. 2002-2011 -ci illərdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Əlillərin Sosial Müdafiəsi Baş İdarəsinin 13 saylı zona şöbəsinin Baş məsləhətçisi vəzifələrində işləşişdir.

Əmək fəaliyyətinin 28 ilini Dövlət Qulluğunda çalışmışdır. 2011 - ci ilin aprel ayından hal hazıra kimi Xaçmaz rayon Veteranlar Təşkilatının sədridir. Xaçmaz rayonunda veteranlarla işin təşkilini, ictimai işlərdə veteranların aktiv fəaliyyətinin təmin olunmasını nəzərə alaraq Respublika Veteranlar Təşkilatı tərəfindən Fərhad Şeydayev "Veteran Həmrəyliyi" medalı ilə təltif olunmuşdur.

1 iyun 2017 - ci il tarixində 70 yaşı tamam olur.



Bizdə Respublika veteranları Təşkilatının rəyasət heyəti adından Fərhad Şeydayevi təbrik edir, ona cansağlığı, fəaliyyətində müvəfəqiyyətlər arzu edirik.

*Cahangir Nəsirov*

# Qurbanov Eyvaz - 70

Qurbanov Eyvaz İbrahim oğlu 10 may 1947-ci ildə Oğuz rayonunun Qayabaşı kəndində anadan olmuşdur. Orta məktəbi Oğuz rayonunda bitirmişdir. 1980-cı ildə SSRİ DİN-nin F.E.Dzerjinski adına Ali Məktəbində təhsil almış, məktəbi fərqlənmə ilə bitirdikdən sonra Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyində əmək fəaliyyətinə başlamışdır. Mingəçevir şəhər polis şöbəsinin rəis müavini, Xocalı şəhər polis şöbəsinin rəis müavini, Kəlbəcər, Zərbad, Daşkəsən kimi rayonların polis şöbəsinin rəisi, o cümlədən, Dağlıq Qarabağ üzrə Daxili İşlər idarəsinin rəisi vəzifələrində çalışmışdır.



Eyvaz Qurbanov Qarabağ müharibəsinin iştirakçısı olmuşdur. Döyüşlərdə aktiv iştirak etmişdir. Qarabağ veteranıdır.

Eyvaz Qurbanovu 70 illik yubileyi münasibətilə təbrik edir, ona cansağlığı, uzun ömür arzu edirik.

# İkinci Dünya müharibəsinin əfsanəsi tapıldı

*Nə qədər qəribə olsa da, tank uzun illər Don çayının dərinliklərində qalıb*

Rusiyanın Don çayından II Dünya müharibəsi zamanı ən yaxşı tank hesab edilən T-34 aşkarlanıb. T-34 tankları 1940-58-ci illərdə istehsal edilib.

Onun istehsalından sonra bütün tanklar T-34-dən nümunə götürülərək istehsal edilib. Nə qədər qəribə olsa da, tank uzun illər Don çayının dərinliklərində qalıb. Tank bu yaxınlarda təntənəli surətdə çaydan çıxarılıb.

Qeyd edək ki, Rusiyada bu tank İkinci Dünya müharibəsindən qalan əfsanə hesab edilir.





## Allah rəhmət eləsin

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının Rəyasət heyəti II Dünya müharibəsi veteranı İsmayıl Fərəcova həyat yoldaşı
**Gülsüm xanımın**
vəfatından kədərləndiyini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Masallı Rayon Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri Məmmədağa Şiriyev və Təşkilatın üzvləri Böyük Vətən müharibəsi veteranı Atabala Hacıyevə qızı
**İlahə xanımın**
vaxtsız vəfatından kədərləndiklərini bildirir, dərin hüzünlə başağlığı verirlər.

**"Azərbaycan Veteranı" qəzetinin elektron ünvanına (az.veteran@mail.ru) məqalələrinizi göndərməklə bizimlə əməkdaşlıq edə bilərsiniz. Qeyd edək ki, "Azərbaycan Veteranı" qəzetində dərc olunan məqalələrdəki faktlara və məlumatlara görə müəllif məsuliyyət daşıyır. Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.**

**Əziz oxucular, "Azərbaycan Veteranı" qəzeti üçün abunə yazıla bilərsiz!**
**Qəzetimizə abunə olmaq üçün:**
**Hesab nömrəsi**
**AZ33İBAZ38090019442437115209**
**6 aylıq abunə haqqı - 7.5 AZN**
**1 illik abunə haqqı - 15 AZN**
**Qeyd: Əziz və hörmətli oxucular, "Azərbaycan Veteranı" qəzetinə abunə olmaq üçün "Azərmətbuatyayımı" ASC şöbələrinə, poçtlara, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına və Təşkilatın rayon şöbələrinə müraciət edə bilərsiniz.**
**Əlaqə telefonları: (012) 440- 21-08 012) 497- 63-58 (111)**

***Baş redaktor***
*Ülvi İBRAHİMLİ*
***Məsul katib***
*Səidə ABDULLAYEVA*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
***Təsişçi:** Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti*

*"Azərbaycan Veteranı" qəzeti.*
***VÖEN:***
*1701285981*
*verilmə tarixi - 23.11.2011*

***Ünvan:** Bakı şəhəri, Nərimanov rayonu, Kaverockin küçəsi, 34*
***Əlaqə telefonu:** 012 440-21-08*
***e-mail:** az.veteran@mail.ru*
***Dövlət qeydiyyat nömrəsi** - 3486*
***Dövlət qeydiyyat tarixi** - 19.10.2011*

*Qəzet ayda iki dəfə "Azərbaycan Veteranı" qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və "Veteran Nəşriyyatı" mətbəəsində nəşr olunur.*
*Qiyməti 60 qəpik*
*Tiraj: 1250*